31 mart 2023 №24 (1993) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Paytaxtdakı modern üslubda göydələnlərin sırasına daha biri əlavə olunub



Martın 30-da İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin paytaxt Bakıda yeni inzibati binası istifadəyə verilib. Prezident İlham Əliyev yeni binanın açılışında iştirak edib.

Son illərdə paytaxtda modern üslubda tikilən hündürmərtəbəli binaların sırasına daha biri əlavə olunub. Heydər Əliyev prospektində inşa edilən bina müasir memarlığı ilə diqqəti cəlb edir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bina barədə dövlətimizin başçısına məlumat verib.

Modern və postmodern üslubda layihələndirilən bina mürəkkəb konstruktiv quruluşa malikdir. Hündürlüyü 125 metr olan bina 33 mərtəbədən ibarətdir.

davamı səh. 2-də

## 31 Martdan 105 il sonra...

### Bir daha tarix kitablarımızı qan yaddaşımızla təzələmək bizə qismət olmasın...

Azərbaycan tarixinin ən qanlı səhifələrindən olan 1918-ci mart qırğınlarından 105 il ötür. Şaumyanın rəhbərlik etdiyi "Bakı Soveti"nin daşnak-bolşevik hərbi qüvvələrinin müsəlman azərbaycanlıların "sovet hakimiyyətinə qarşı çıxması" bəhanəsi ilə Bakıda və ətraf kəndlərdə, eləcə də Şamaxıda, Qubada, Lənkəranda, Gəncəbasarda, Qarabağda törətdiyi qırğınlarda on minlərlə insan qətlə yetirilmişdi. Ermənilərin azərbaycanlılara qarşı kütləvi qırğınları 1918-ci ilin martından öncə və sonra həmçinin Qərbi Azərbaycanda – indi Ermənistan adlandırılan ərazilərdəki yüzlərlə kənddə, yurd yerimiz Zəngəzurda, tarixi şəhərimiz İrəvanda həyata keçirilmişdi.



1918-ci il qırğınlarının ən qanlı günü isə martın 31-də Bakıda yaşanmışdı. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının memarlıq incilərindən sayılan "İsmailiyyə" binasına od vurmuş, şəhərin bir hissəsini xarabalığa çevirmişdilər...

Prezident Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda bu acı hadisələrə və ümumilikdə XIX əsrin əvvəlində Şimali Azərbaycanın Rusiyaya ilhaqından sonra ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasətinə tarixi-siyasi qiymət verilib. Sənəddə erməni millətçi qüvvələri tərəfindən azərbaycanlılara qarşı 1905-1907, 1918-ci illərdə həyata keçirilmiş qətliamlar, azərbaycanlıların Ermənistan ərazisindəki tarixi yurdlarından 1948-1953-cü illərdəki deportasiyası, 1988-ci ildə Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmənin aparılması, bu prosesin Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində davam etməsi təhlil olunub. Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.





105 il öncə tariximizə düşən bu gün 25 ildir müstəqil Azərbaycanın rəsmi təqvimindədir. Qan yaddaşımızdan isə, əslində, heç vaxt itməmişdi, sadəcə, bir neçə onillik unutdurulmağa çalışılmışdı.

Tarix kitabları ötəri, xalqın qan yaddaşı əbədidir. Bir daha tarix kitablarımızı qan yaddaşımızla təzələmək bizə qismət olmasın...

mövzunun davamı: səh 2, 4, 6

## Azərbaycanda ilk teatr forumu keçiriləcək

Xəbər verdiyimiz kimi, Ümummilli lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri çərçivəsində 10-11 aprel 2023-cü il tarixlərində Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin iştirakı ilə "Azərbaycan teatrı – 150: inkişaf perspektivləri" mövzusunda Teatr Forumu keçiriləcək.

Forumun rəsmi açılış mərasimi aprelin 10-da Heydər Əliyev Mərkəzində olacaq.

Tədbirdə 150 illik tarixi olan Azərbaycan peşəkar milli teatrının keçdiyi inkişaf yolundan bəhs edən videoçarx nümayiş olunacaq, sonra forum öz işinə panel müzakirələrlə davam edəcək. Panel müzakirələri "Azərbaycan teatrında ənənələr və trendlər", "Milli teatrda müasir aktyor məktəbi: yenilənmə prosesində sistemli yanaşma", "Konsepsiya və strateji hədəflər", "Teatr sahəsində insan kapitalının inkişafı" mövzularına həsr olunub.

davamı səh. 2-də

## "Qarabağnamə" – Xalq rəssamının silsilə əsərləri kino yaddaşına köçürülüb

Martın 30-da Nizami Kino Mərkəzində "Qarabağnamə" sənədli filminin təqdimatı keçirildi.




Təqdimat Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, AzTV, Nizami Kino Mərkəzi, Azərbaycan Rəssamlar İttifaqı (ARİ) və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə gerçəkləşdi. Tədbirdə rəssamlar, mədəniyyət və incəsənət xadimləri, digər qonaqlar iştirak edirdilər.

Jurnalistlərə açıqlama verən filmin rejissoru Elnurə Kazımova qeyd etdi ki, ekran işi 2021-ci ildə "Azərbaycantelefilm" yaradıcılıq birliyi tərəfindən ərsəyə gətirilib. Film Xalq rəssamı Arif Hüseynovun "Qarabağnamə" adlı silsilə əsərləri və "Qarabağnamə – tarixin səhifələri" kitabının motivləri əsasında lentə alınıb. Ekran əsəri dəfələrlə Azərbaycanda və xaricdə nümayiş olunub, böyük maraqla qarşılanıb.

Təqdimatdan öncə Vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva vurğuladı ki, bir xalqı ən gözəl şəkildə təbliğ edən onun mədəniyyətidir. Mədəniyyət millətin simasıdır. Millət vəkili dedi ki, bu il 80 yaşını qeyd edən Xalq rəssamı Arif Hüseynov 55 ildən çoxdur təsviri sənət sahəsində fəaliyyət göstərir. "Qarabağnamə – tarixin səhifələri" kitab-albomu rəssamın ürək yanğısı, dərin idrak və vətənpərvər ruhla yaratdığı əsərlərin ümumi adı, ünvanıdır.

Filmin məsləhətçisi Xalq rəssamı Arif Hüseynov bildirdi ki, ekran əsəri Qarabağımızın tarixinə həsr olunmuş silsilə əsərlərin təqdimatından ibarətdir. Qrafik tablolar üzərində torpaqlarımızın və mədəniyyətimizin keçmişi, bu günü və gələcəyi haqqında düşüncələr əks olunub. Filmdə tarixi şəxsiyyətlər, generallar, xanəndə və aşıqların portretləri, memarlıq abidələri, Azərbaycan tarixində baş vermiş bir çox hadisə və faktların təcəssüm olunduğu təsvirlər yer alıb.

Rəssamlar İttifaqının sədr müavini Xalq rəssamı Ağəli İbrahimov, Xalq artisti, kinorejissor Oqtay Mirqasımov, Xalq yazıçısı Natiq Rəsulzadə, Əməkdar jurnalist Etibar Babayev və AzTV-nin Analitik qrupunun rəhbəri Əməkdar jurnalist Faiq Hüsiyev çıxış edərək film haqqında fikirlərini bölüşdülər.

Çıxışlardan sonra film nümayiş olundu.

Qeyd edək ki, "Qarabağnamə" filminin ssenari müəllifi Sadıq Elcanlı, operatorları Elxan Rüstəmov, Elşən Bədəlov, prodüseri Fatimə Əzimovadır.

## Türkiyədə prezident seçkiləri kampaniyası başlayır

Aprelin 1-də Türkiyədə prezident seçkiləri kampaniyasına start veriləcək. Ölkənin Yüksək Seçim Qurumu (Mərkəzi Seçki Komissiyası) tərəfindən dörd namizəd qeydə alınıb. Bunlar hazırkı dövlət başçısı, hakim AK Partiyanın sədri və "Cumhur İttifaqı"nın namizədi Rəcəb Tayyib Ərdoğan, Cümhuriyyət Xalq Partiyasının sədri və "Millət İttifaqı"nın namizədi Kamal Kılıçdaroğlu, həmçinin Məmləkət Partiyasının sədri Muharrem İncə və "Ata İttifaqı"nın namizədi Sinan Oğandır. Sonuncu iki namizəd parlamentdə təmsil edilməyən siyasi təşkilatlar tərəfindən irəli sürüldüyü üçün, müvafiq qanunun tələbinə əsasən, 100 min imza toplayaraq qeydə alınıblar.

Türkiyədə prezident seçkiləri mayın 14-nə nəzərdə tutulub. Eyni gündə parlament – Türkiyə Böyük Millət Məclisinə də növbəti seçkilər keçiriləcək.

## Sakit okean sahilindən Xəzərin sahilinə




Rusiyanın Vladivostok şəhərində fəaliyyət göstərən Maksim Qorki adına Primorsk Akademik Vilayət Dram Teatrı (bədii rəhbər Rusiyanın Xalq artisti, "Qızıl maska" mükafatı laureatı Yefim Zvenyatski) 1-9 iyul tarixlərində Bakıda qastrolda olacaq.

Səfər "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan peşəkar milli teatrının 150 illiyi münasibətilə Rusiya Federasiyası Primorsk Vilayəti Hökumətinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşacaq.

Primorsk Akademik Vilayət Dram Teatrı da bu il yubileyini, 90 yaşını qeyd edir. Uzaq Şərqdə, Sakit okeanın sahilində klassik rus psixoloji teatrı ənənələrini qoruyub saxlayan qocaman akademik teatr Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində repertuarından seçmə 6 tamaşa göstərəcək.

davamı səh. 8-də

## Tarixi həqiqətlərin ünvanı – Quba Soyqırımı Memorial Kompleksi

Bu günlər tariximizin qan yaddaşı, 1918-ci il soyqırımının 105-ci ildönümü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksi əsas ziyarət məkanlarından biridir.

Bu, 1918-ci ildə azərbaycanlıların soyqırımı tarixinə həsr edilən ilk muzeydir. Buradakı ekspozisiyada təkcə Quba qəzasında deyil, Bakı quberniyasının digər – Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında törədilmiş soyqırımları haqqında ətraflı məlumat əks olunub.



Quba Soyqırımı Memorial Kompleksi fəaliyyətə başladığı 2013-cü ildən indiyə kimi ümumilikdə 1 milyondan çox ziyarətçi qəbul edib. Onlardan 178 min nəfəri əcnəbilərdir. Onların arasında turistlər, yüksək səviyyəli nümayəndə heyətləri, respublikamızda olan xarici ölkələrin səfirləri və səfirlik əməkdaşları da var. Kompleksə gələn ziyarətçilər ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılırlar. Ziyarətçilərə kompleksin bələdçiləri tərəfindən 4 dildə (Azərbaycan, ingilis, rus və ərəb) informasiyalar verilir.

davamı səh. 4-də

## "Hər şeyə rəğmən sənətdən heç vaxt küsmədim..."

### "Əvəzində tamaşaçı sevgisini qazandım"

Müsahibimiz Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 60 il sənət həyatı yaşamış görkəmli aktyor Xalq artisti, "Şöhrət" ordenli Rafiq Əzimovdur.

səh. 7

### Ustad xanəndənin xatirəsi anılıb



səh. 3

### "Azərbaycanım" respublika uşaq rəsm festivalının yeni mövsümü

Bu dəfə müsabiqənin mövzusu güllərdir

səh. 3

### Milli İncəsənət Muzeyinin kolleksiyasında Çin incəsənəti



səh. 3

№24 (1993)
31 mart 2023
www.medeniyyet.az

### Azərbaycan Respublikası Prezidentinin “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında” 2014-cü il 14 may tarixli 162 nömrəli və “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 6 iyun tarixli 119 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

**1.** “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 162 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 475; 2016, № 8, maddə 1384; 2018, № 4, maddə 655, № 6, maddə 1213; 2019, № 5, maddə 821; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2048 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1.1-ci bənddən “(ikinci halda)” sözləri çıxarılsın;

**1.2.** 1.5-ci, 1.7-ci, 1.8-ci, 1.10-cu və 1.11-ci bəndlərə “Agentliyi,” sözündən sonra “Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,” sözləri əlavə edilsin;

**1.3.** 1.6-cı bəndə “Agentliyi” sözündən sonra “, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi” sözləri əlavə edilsin;

**1.4.** 1.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.12. həmin Qanunun 22.5-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, digər dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənarda folklor nümunələrindən kommersiya məqsədilə istifadə etdikdə isə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur;”;

**1.5.** 1.12-1-ci bənd ləğv edilsin.

**2.** “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209, № 10, maddə 2002; 2019, № 5, maddələr 822, 825, № 10, maddə 1588, № 12, maddə 1929; 2020, № 7, maddə 892; 2022, № 9, maddə 1030, № 11, maddə 1256; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2051 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə” üzrə:

**2.1.1.** 2.0.4-cü, 3.1.6-cı, 3.1.14-cü və 3.1.48-ci yarımbəndlərə, 3.2-ci və 4.2-ci bəndlərə “Azərbaycan Respublikası” sözlərindən əvvəl “Şuşa şəhərinin ərazisi,” sözləri əlavə edilsin;

**2.1.2.** 3.2.16-cı yarımbənddən “(Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyindəki dövlət qoruqlarının, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları istisna olmaqla)” sözləri çıxarılsın;

**2.2.** həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə” üzrə:

**2.2.1.** 1.1-ci bəndə “Azərbaycan Respublikası” sözlərindən əvvəl “Şuşa şəhərinin ərazisi,” sözləri əlavə edilsin;

**2.2.2.** 3.0.37-ci yarımbənddən “(Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyindəki dövlət qoruqlarının, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları istisna olmaqla)” sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 mart 2023-cü il**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tapşırığına əsasən, Prezidentin köməkçisi Anar Ələkbərov martın 28-də yaşadığı evin qarşısında terror aktına məruz qalmış Milli Məclisin deputatı Fazil Mustafanı bu gün müalicə olunduğu xəstəxanada ziyarət edib, onun ailə üzvləri ilə görüşüb.

Millət vəkilinə dövlətimizin başçısının və birinci xanımın şəfa diləklərini çatdıran Anar Ələkbərov bildirib ki, Prezident İlham Əliyev onun tezliklə sağalması üçün tibb personalı tərəfindən bütün zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verib. Diqqətə çatdırılıb ki, xain terror aktını törətmiş şəxsin və ya şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması istiqamətində təxirəsalınmaz əməliyyat-istintaq tədbirlərinin aparılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən hüquq-mühafizə orqanlarına göstəriş verilib.

Milli Məclisin deputatı Fazil Mustafa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya göstərilən diqqət və qayğıya görə dərin minnətdarlığını bildirib, hadisənin onu sarsıtmadığını vurğulayaraq, həmişə olduğu kimi bundan sonra da dövlətçilik ideyalarına sadiq qalacağını və heç nəyin onu bu yoldan çəkindirə bilməyəcəyini deyib.

## Bakıda növbəti Uşaq Kitab Festivalı təşkil olunacaq

Aprelin 8-dən 11-dək Bakı İdman Sarayında II Uşaq Kitab Festivalı təşkil ediləcək. “Azərbaycan Nəşriyyatları Assosiasiyası” İctimai Birliyindən verilən məlumata görə, festival çərçivəsində minlərlə kitabın endirimli qiymətlərlə satışı, ustad dərsləri, məşhurların nağıl saatları, əyləncəli tamaşalar təşkil olunacaq.

Qeyd edək ki, tədbirin təşkilatçıları “Azərbaycan Nəşriyyatları Assosiasiyası” İctimai Birliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir.

Giriş sərbəstdir. Festivalda tanınmış uşaq yazarlarının imzalı kitabları da ziyarətçilərə təqdim ediləcək.

# Paytaxtdakı modern üslubda göydələnlərin sırasına daha biri əlavə olunub

### Əmlak Məsələləri Dövlət Xidmətinin 125 metr hündürlüyündə yeni inzibati binası

*əvvəli səh. 1-də*

Yükdaşıyan konstruksiyaları 9 ballıq zəlzələyə davamlı olan binanın hər mərtəbəsi digər mərtəbəyə nisbətdə 2,65 dərəcə dönür və nəticədə fasad müstəvisi 90 dərəcəlik burulma effekti yaradır.

Binanın daha bir diqqətçəkən cəhəti isə yuxarıdan baxanda kürsü mərtəbəsinin Azərbaycanın xəritəsi formasında inşa edilməsi və şərq tərəfdən “Xəzər dənizi” dekorativ hovuzu ilə əhatə olunmasıdır. Binada tikintidə müasir çağırışların paytaxtımızın infrastrukturuna inteqrasiyası ilə yanaşı, işçi heyətin daha səmərəli çalışması üçün də hər cür şərait yaradılıb.

İşçi mərtəbələrdəki 254 otaqda ümumilikdə 537 əməkdaş çalışa biləcək. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunmuş konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxanalar



var. Mikroiqlimin təmin olunması, səmərəli enerji sərfiyyatının tənzimlənməsi, işıqlandırma, yanğınsöndürmə və təhlükəsizlik sistemlərinin idarə edilməsi, fövqəladə hallar zamanı mühəndis-texniki sistemlərin tənzimlənməsi üçün İdarəetmə Mərkəzi qurulub.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar çərçivəsində əmlak məsələləri sahəsində də bir sıra irəliləyişlərə nail olunub. Dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı, torpaq idarəçiliyi və digər sahələrdə mühüm işlər görülüb. Vətəndaşlara və sahibkarlara göstərilən dövlət xidmətlərində şəffaflığın artırılmasına, elektron xidmətlərin genişləndirilməsinə, vətəndaş məmnunluğunun yüksəldilməsinə xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, 2022-ci ildə vətəndaşlardan, sahibkarlardan, bələdiyyələrdən, dövlət qurumlarından Xidmətə 1 milyona yaxın elektron müraciət daxil olub.

Eyni zamanda “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda əks etdirilən tədbirlər, o cümlədən həmin ərazilərdə yerquruluşu, torpaqların elektron kadastr uçotu, torpaq tədqiqatları, torpaqların idarə edilməsi və işğal nəticəsində dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı işlər davam etdirilir. Azad edilən ərazilərdə indiyədək 14,1 min daşınmaz əmlakın ilkin inventarlaşdırılması işləri tamamlanıb. Bu günədək rəqəmsallaşdırılması mümkün olan 164 minə yaxın tikili və qurğudan təqribən 145 mini təsbit olunub və həmin sistemə daxil edilib.

# “Heydər Əliyev və azərbaycançılıq məfkurəsi”

### Milli Kitabxanada elmi konfrans keçirilib

Martın 30-da Mədəniyyət Nazirliyi, Səbail Rayon İcra Hakimiyyəti və Milli Kitabxananın birgə təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ”Heydər Əliyev və azərbaycançılıq məfkurəsi” mövzusunda elmi konfrans keçirilib.

Əvvəlcə qonaqlar Milli Kitabxanada Heydər Əliyevə həsr olunmuş guşədə xalqımızın böyük oğlunun xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri Milli Kitabxananın direktoru professor Kərim Tahirov açaraq bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı respublikamızda çoxsaylı tədbirlər təşkil olunur. Heydər Əliyev həmişə Azərbaycan adına, azərbaycançılığa sadiq olub və bununla fəxr edib. Müstəqil Azərbaycan dövləti var olduqca Ulu öndər daima bizim yaddaşımızda qalacaq, onun adı Azərbaycan adı ilə qoşa çəkiləcək.

Səbail Rayon İcra Hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Kəmalə Həşimova qeyd edib ki, konfransın Milli Kitabxanada keçirilməsi təsadüfi deyil. Ulu öndər daima kitabxanalara böyük dəyər verib. O, belə tədbirlərin gənclərin Heydər Əliyev irsinin öyrənilməsində rolunu qeyd edib.



Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli bildirib ki, Heydər Əliyev fenomen şəxsiyyət kimi həm də mədəniyyət, iqtisadiyyat və ordu qurucusu olub. Ulu öndərin qayğısı ilə yetişən gənclər onun siyasətini davam etdirirlər.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov qeyd edib ki, Heydər Əliyev azərbaycançılıq məfkurəsinə daima xüsusi diqqət göstərib, 70-80-ci illərdən başlayaraq onu ideyadan praktikaya keçirib. Siyasətçinin qüdrəti ondadır ki, o, ideologiyanı həyata keçirsin. Hüseyn Cavid azərbaycançılıq ideologiyasında türkçülüyü, Məhəmməd Hadi müsəlmançılığı, Abbas Səhhət və Abdulla Şaiq maarifçiliyi əsas görürdüsə, Heydər Əliyev azərbaycançılıq ideologiyası ilə göstərdi ki, bu ideologiyanın əsasında həm türkçülük, həm müsəlmançılıq, həm də maarifçilik dayanır.

Milli Məclisin deputatları Tahir Rzayev, Hikmət Babaoğlu, YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, publisist-politoloq Reyhan Mirzəzadə mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Tədbirin sonunda “2023 – Heydər Əliyev İli” adlı kitab sərgisinə baxış olub.

# Azərbaycanda ilk teatr forumu keçiriləcək

### Səslənən təkliflər mədəniyyətlə bağlı strategiyanın tədbirlər planında nəzərə alınacaq

*əvvəli səh. 1-də*

Ekspert kimi dəvət edilən Rusiya Teatr Sənəti İnstitutunun (GİTİS) rektoru, Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi Qriqori Zaslavskinin və GİTİS-in kafedra müdiri, prodüser Elşən Məmmədovun çıxışları tədbirin proqramına daxil edilib.




Forum müddətində aparılan fikir mübadiləsi və müzakirələr əsasında toplanan təkliflər “Azərbaycan mədəniyyəti 2020-2040 Dövlət Strategiyası” ilə bağlı tərtib edilən tədbirlər planında nəzərə alınacaq.

Forumda respublikanın tanınmış teatr xadimləri, rejissor və aktyorları, paytaxtda və bölgələrdə fəaliyyət göstərən teatrların rəhbər və yaradıcı kollektivləri, xalq teatrları və müstəqil teatrların nümayəndələri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllim və tələbələrinin iştirakı nəzərdə tutulub.

Heydər Əliyev Mərkəzində gerçəkləşəcək forumda iştirak üçün nazirliyin rəsmi internet saytında (“culture.gov.az”) yerləşdirilən onlayn forma üzrə qeydiyyatdan keçmək mümkündür. Tədbirdə iştirakla bağlı təsdiq e-poçt vasitəsilə bildiriləcək.

Qeyd edək ki, Azərbaycanda belə bir geniş tematikada ilk dəfə teatr forumu təşkil edilir.

Bundan öncə “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramı” çərçivəsində Bakıda beynəlxalq teatr konfransları (2010, 2012, 2014, 2016, 2018) keçirilib.

# “Bu cinayətlərin əsasında ermənilərin azərbaycanlılara qarşı nifrəti dayanıb”

31 mart bütün insanlığa qarşı törədilən erməni vandalizminin təzahürlərindən biri kimi tariximizə Azərbaycanlıların Soyqırımı Günü kimi daxil olub. 1918-ci ildə törədilən bu qanlı hadisələr zamanı on minlərlə dinc azərbaycanlı yalnız etnik mənsubiyyətinə görə erməni millətçilərinin davamlı soyqırımı və təcavüzkar siyasətinə məruz qalaraq qətlə yetirilib. Erməni-bolşevik birləşmələri tərəfindən insanlar evlərində diri-diri yandırılıb, həmçinin xüsusi işgəncələrlə və amansızlıqla öldürülüb.

Bu sözlər Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanatında yer alıb.

Bəyanatda deyilir ki, azərbaycanlıların soyqırımı Bakı şəhərində, Bakı quberniyasına daxil olan şəhər və qəzalarda, həmçinin Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər bölgələrimizdə xüsusi qəddarlıqla həyata keçirilib, dinc əhali kütləvi surətdə qətlə yetirilib, mədəniyyət abidələri, qəbiristanlıqlar, məscidlər top atəşinə tutularaq dağıdılıb. Erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə, ən qəddar üsullarla törədilmiş bu soyqırımı zamanı Şamaxı qəzasının 110, Quba qəzasının 167, Qarabağın 150-dən çox, Zəngəzur qəzasının 115 kəndində, qədim Azərbaycan torpağı olan İrəvan şəhərində və onun ətrafında 199 kənddə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilib.

Vurğulanır ki, ermənilər tərəfindən törədilən soyqırımı cinayətlərinin əsasında azərbaycanlılara qarşı əsrlər boyu davam edən kəskin nifrət, ayrı-seçkiliyi aşılayan siyasət və tamamilə əsassız ərazi iddiaları dayanıb.

Diqqətə çatdırılır ki, 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ildə ermənilərin törətdikləri soyqırımı cinayətlərini əyani olaraq sübut edir. Bu cinayətlərin tarixi faktlarla dünya ictimaiyyətinə çatdırılması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2013-cü ildə Quba Soyqırımı Memorial Kompleksi yaradılıb.

“Təəssüf hissi ilə qeyd olunmalıdır ki, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktlarına dair kifayət qədər əsaslı sübut və dəlillər olsa da, sülh və insanlıq əleyhinə olan bu cinayətlərə beynəlxalq miqyasda hələ də adekvat reaksiya verilməyib. Dünya ictimaiyyətini və nüfuzlu beynəlxalq təşkilatları tarix boyu ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə və soyqırımı cinayətlərinə siyasi-hüquqi qiymət verərək soyqırımı kimi tanımağa və ədalətin təmin olunmasına dəstək verməyə çağırıram”, – deyə bəyanatda bildirilir.

Bəyanat BMT-nin baş katibinə, BMT-nin qurumlarına, digər beynəlxalq təşkilatlara, xarici ölkələrin respublikamızdakı səfirliklərinə göndərilib.

# Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasında Çin incəsənəti

## Sərgi ölkənin qədim mədəni irsi və zəngin sənət ənənələri ilə tanışlıq fürsətidir

Xəbər verdiyimiz kimi, Azərbaycan Milli İncəsənət Muzeyində Çin mədəni irsini əks etdirən sərgi təşkil edilib. Sərgi muzeyin, Azərbaycan Mədəniyyət Nazirliyinin və Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə ərsəyə gəlib.

Martın 29-da "Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından" adlı sərginin açılış mərasimi olub. Mərasimdə ölkəmizdə akkreditə olunmuş səfirlər və digər rəsmi şəxslər iştirak ediblər.

Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Qo Min tədbiri açaraq qeyd edib ki, sərgi iki ölkə arasında dostluq əlaqələrini nümayiş etdirir. Vurğulayıb ki, iki ölkənin rəhbərlərinin atdığı addımlar sayəsində qarşılıqlı münasibətlər uğurla inkişaf edir. Sərginin məqsədlərindən biri də iki müxtəlif mədəniyyət arasında körpünün qurulmasıdır.





Sərginin kuratoru, Milli İncəsənət Muzeyinin direktoru professor Çingiz Fərzəliyev layihənin ideyasından danışıb. O ümidvar olduğunu bildirib ki, sərgi iki ölkə arasında mədəni əlaqələrin möhkəmləndirilməsi, iki xalqın mədəniyyətinin təbliği və tanınmasına əvəzolunmaz töhfə verəcək. Azərbaycan və Çin arasında əsrlər boyu qurulan iqtisadi, mədəni dostluq münasibətləri davamlı və möhkəm olacaq.

Qeyd edək ki, sərginin konsepsiyası muzey salonlarında ənənəvi Çin evi ab-havasının yaradılmasını ehtiva edir. Çin mədəniyyəti bəşəriyyətin ən qədim mədəniyyətlərindən biri hesab olunur. Sərgi təkcə tarixi eksponatlar toplusu deyil, həm də ziyarətçilərin Çin xalqının mədəniyyəti və adət-ənənələri ilə yaxından tanış olması üçün bir fürsətdir.

Sonra musiqi proqramı təqdim edilib.

Layihənin koordinatoru Könül Rəfiyeva sərginin əhəmiyyətindən danışıb və ekspozisiya barədə məlumat verib. Bildirib ki, ekspozisiyada qədim tanrıların və müdriklərin heykəlcikləri, Çin mənzərələri olan tekstil məmulatları, xəttatlıq pannoları, otaq bitkiləri, çini vazalar, oyma taxta mebellər, Çin fəlsəfəsinə uyğun olaraq semantik məna daşıyan, evdə sülh və əmin-amanlığın rəmzi olan divar rəsmləri və xəttatlıq nümunələri yer alıb.

Sonra qonaqlar sərgiyə baxıblar. "Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından" sərgisi 30 iyun 2023-cü il tarixinədək davam edəcək.

# Kamera və orqan musiqisi zalında konsertlər






### "Qara Qarayev və tələbələri"

Martın 29-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında "Qara Qarayev və tələbələri" adlı orqan musiqisi axşamı keçirilib.

Konsert dahi bəstəkar, pedaqoq, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Qara Qarayevin (1918-1982) anadan olmasının 105-ci ildönümü münasibətilə gerçəkləşib.

Gecədə Əməkdar artist Töhfə Babayeva (violin), solistlər Rasimə Babayeva, Nigar Məmmədova, Səbinə Aslanova və Şəfəq Abdullayeva (hamısı orqan) çıxış ediblər.

Proqramda Qara Qarayev, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Arif Məlikov, Firəngiz Əlizadə, Elnarə Dadaşova və Cəlal Abbasovun əsərləri səsləndirilib.

### "Fleyta və piano gecəsi"

Kamera və orqan musiqisi zalında "Fleyta və piano gecəsi" adlı konsert də təşkil edilib.

Musiqili gecədə solistlər Nərgiz Kəngərli (piano), Mirxalid Məmmədzadə (fleyta), Kamil Hüseynzadə (zərb alətləri) və Həsən Əsədov (kontrabas) öz rəngarəng ifalarını dinləyicilərə təqdim ediblər.

Proqramda Ferens Listin "İspan rapsodiyası cis-moll", Frans Dopplerin "Macar pastoral fantaziyası D-dur, op.26", Klod Bollinqin "Fleyta və caz piano triosu üçün süita" əsərləri səsləndirilib.

# "Koroğlu"nun növbəti tamaşası Lütfiyar İmanovun xatirəsinə həsr olunacaq

Aprelin 17-də Azərbaycanın görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Lütfiyar İmanovun (1928-2008) anadan olmasının 95-ci ildönümü tamam olacaq.

Lütfiyar İmanov uzun illər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub, teatrın səhnəsində bir çox opera tamaşalarında yaddaqalan obrazlar yaradıb. Müğənninin yaradıcılığında Üzeyir Hacıbəylinin "Koroğlu" operası xüsusi yer tutur. Sənətkar operada baş qəhrəmanı özünəməxsus ifa tərzi ilə oynayaraq hər zaman tamaşaçı rəğbəti qazanıb.

Teatrda "Koroğlu" operasının aprelin 1-də keçiriləcək tamaşası Lütfiyar İmanovun 95 illik yubileyinə həsr edilib. Koroğlu partiyasını Xalq artisti Samir Cəfərov, Nigar rolunu Əməkdar artist İlahə Əfəndiyeva ifa edəcəklər. Opera tamaşasında həmçinin Əməkdar artistlər Cahangir Qurbanov (Həsən xan), Tural Ağasıyev (Həmzə bəy), gənc solistlərdən Mahir Tağızadə, Fəhmin Əhmədli, Taleh Yəhyayev, Aytən Məhərrəmova və başqaları çıxış edəcəklər.

Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev, dirijoru Əməkdar artist Əyyub Quliyev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır.

# Görkəmli xanəndə Əlibaba Məmmədovun xatirəsi anılıb

Beynəlxalq Muğam Mərkəzində Xalq artisti, görkəmli xanəndə Əlibaba Məmmədovun xatirə gecəsi keçirilib.




Tanınmış incəsənət xadimləri, sənətsevərlər və muğam ustadının ailəsinin də iştirak etdiyi gecədə Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi xanəndənin həyat və yaradıcılığından söz açıb.

Konsert proqramı ilə davam edən tədbirdə unudulmaz xanəndənin repertuarından muğamlar, bəstələdiyi mahnı və təsniflər səsləndirilib.

Tədbirdə əslən Cənubi Azərbaycandan olan məşhur rəssam və xanəndə Vədud Müəzzin Əlibaba Məmmədovun özünəməxsus ustalıqla yaratdığı portretini sənətkarın ailə üzvlərinə hədiyyə edib.

# "Azərbaycanım" respublika uşaq rəsm festivalının yeni mövsümü

## Bu dəfə müsabiqənin mövzusu güllərdir




Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanım" respublika uşaq rəsm festivalının yeni mövsümü başlanıb və festival çərçivəsində müsabiqə elan olunub.

Uşaq, yeniyetmə və gənclərin yaradıcılığının stimullaşdırılması və bədii zövqünün inkişaf etdirilməsi məqsədi daşıyan sayca 6-cı festival "Heydər Əliyev İli" çərçivəsində reallaşacaq.

Müsabiqəyə qatılmaq istəyən yaşı 21-dək olan şəxslər aprelin 25-dək rəsm əsərini fotosu ilə bərabər və özü haqqında müvafiq məlumatlarla resmfestival2023@gmail.com elektron ünvanına göndərə bilərlər. Ən çox 2 əsər göndərilə bilər.

Müsabiqənin mövzusu: "Güllər". Ölçü və texnika sərbəstdir. Seçim 3 yaş kateqoriyası üzrə aparılacaq və hər yaş kateqoriyasına ayrıca sərgi keçiriləcək: 11 yaşa qədər, 11-16 və 16-21 yaş arası.

I turdan keçmiş əsərlər Xətai Sənət Mərkəzində sərgilənəcək. Əlavə suallarla Xətai Sənət Mərkəzinə müraciət etmək olar: 051 310 74 01 (WhatsApp).

Əsəri sərgidə nümayiş olunan müəlliflər sertifikatla və fəal tədris mərkəzləri (dərnək, incəsənət məktəbi və s.) təşəkkürnamə ilə təltif olunacaq. Hər yaş qrupu üzrə ən yaxşı 10 əsərin müəllifi festivala dəvət olunacaq.

# "Qonağımız var" – Xalq artisti ilə görüş

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə H.Abbasov adına Mədəniyyət Mərkəzində "Qonağımız var" layihəsi çərçivəsində Xalq artisti, aktyor Valeh Kərimovla görüş keçirilib.

Tədbirdə Valeh Kərimovun həyat və yaradıcılığı haqqında məlumat verilib, rol aldığı filmlərdən videoçarxlar təqdim olunub.

Sənətkar həyatının yaddaqalan məqamları, aktyorluq sənətinə gəlişi və oynadığı rollardan bəhs edib.

Görüş zamanı Xalq artistləri İlham Namiq Kamal, Əli Nur, Əməkdar artist Azad Şükürov çıxış edərək aktyorun sənətindən və yaratdığı obrazlardan danışıb, müğənnilər isə ifaları ilə tədbirə rəng qatıblar.

Sonda Xalq artisti iştirakçıları maraqlandıran sualları cavablandırıb.




# "Yaşanan yarım əsr"

## Teatr rejissoru, aktyor Nicat Kazımovun sənətə bağlı illəri kino dili ilə təqdim edildi



Yaşadığı 50 illik ömrün böyük hissəsini teatra, səhnəyə həsr edib tamaşaçı yaddaşında özünə yer tutan Nicat Kazımov yenidən sənətsevərləri bir araya gətirdi. Bu dəfə film təqdimatı ilə. Tələbəsi tərəfindən ömrünün sənətə bağlı illərinin kinoyaddaşa köçürüldüyü sənədli filmlə.

Martın 29-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında rejissor, aktyor, Əməkdar artist Nicat Kazımovun 50 illik yubileyinə həsr olunan "Yaşanan yarım əsr" adlı sənədli filmin təqdimatı keçirildi.

Mədəniyyət Nazirliyinin məsul əməkdaşlarının, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi təqdimatda Nicat Kazımovun sənətə olan sevgisinin, yaradıcılıqda qazandığı uğurların və sözsüz ki, bu müvəffəqiyyətlərdə çəkdiyi əzab-əziyyətin ekrana köçə bilən təsvirlərinə şahid olduq.

Hər zaman maraqlı və fərqli olmağa çalışıb, özünü məhz buna görə sevdirməyi bacaran səbəbkar təqdimatda da özü açılış etdi. Əvvəlcə hər kəsə təşəkkürünü bildirərək haqqında çəkilən sənədli filmin yaranma tarixçəsindən danışdı. Yaradıcılığına, sevgi ilə bağlı olduğu sənətinə verilən qiymətə görə müəlliflərdən tamaşaçılaradək hər kəsə təşəkkür etdi.

Sonra filmin yaradıcı heyəti səhnəyə çıxdı. Filmin ssenari müəllifi və quruluşçu rejissoru Vüsal Əsgərov, quruluşçu operatoru Teymur Məmmədov, montaj rejissoru Firdovsi Nəbiyev, səs operatoru Nicat Cəbrayılov, qrim üzrə rəssamı Vüsalə Abbasova, prodüseri Əməkdar artist İlham Əsədovdur.

Tanınan mədəniyyət və incəsənət xadimlərinin, rejissorun sənət dostlarının və doğmalarının onun haqqında fikirlərinin cəmləşdiyi ekran işində biz bir rejissor ömrünə, səhnəyə bağlı bir aktyor taleyinə sənədli kino dili ilə nəzər sala bildik.

"Sənət sevgisi, sənət üçün təmənnasızlıq bizim nəslin ən əsas prinsipidir və yaxşı ki, bu zəncir qırılmır, yeni nəsil də gəlir. Bir də sənət fəxri ad, mükafatlar üçün seçdiyimiz deyil, bu, bizim mənəvi ehtiyacımız, həyat qayəmizdir. Mən bu prinsiplə yaşayıram", – deyən və bunu həyat amalına çevirən Nicat Kazımov haqqında film gənc rejissorun ilk işi olsa da, tamaşaçılar tərəfindən maraqla qarşılandı.

**Həmidə**

# Sankt-Peterburqda "Çinar" rəqs ansamblının yubileyi

Rusiyanın Sankt-Peterburq şəhərində "Çinar" vokal-xoreoqrafik rəqs ansamblının 25 illik yubileyinə həsr olunmuş konsert keçirilib.



"Çinar" Mədəniyyət Mərkəzinin nəzdindəki eyniadlı vokal-xoreoqrafik rəqs ansamblı Sankt-Peterburq Dövlət Universitetinin baş müəllimi Xeyransa Mirzəyevanın təşəbbüsü və rəhbərliyi ilə yaradılıb. 1998-ci ildən fəaliyyətə başlayan ansambl təkcə Sankt-Peterburqda deyil, Rusiyada və Rusiya hüdudlarından kənarda Azərbaycan musiqisinin və incəsənətinin fəal təbliğatçısı kimi tanınır.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, tədbirdə Sankt-Peterburq şəhəri Millətlərarası münasibətlər və miqrasiya siyasətinin həyata keçirilməsi üzrə Komitənin nümayəndəsi Andrey Frolov, Azərbaycanın Sankt-Peterburqdakı Baş konsulluğunun humanitar məsələlər üzrə konsulu Rəhim Rəhimzadə, yerli hakimiyyət orqanlarının, Azərbaycan diasporunun nümayəndələri və müxtəlif icmaların mədəniyyət qurumlarının rəhbərləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər "Çinar" ansamblının bədii rəhbəri Xeyransa Mirzəyevanı və yaradıcı kollektivi yubiley münasibətilə təbrik ediblər. Sonra ansamblın ifasında konsert proqramı təqdim olunub.

Tədbir çərçivəsində Azərbaycanın zəngin mədəniyyətini və adət-ənənələrini əks etdirən sərgi təşkil edilib. Qonaqlara xalçatoxuma dəzgahında ilmələrin atılması, Novruz şirniyyatlarının bəzədilməsi qaydaları nümayiş etdirilib.

# Milli Məclisin Mədəniyyət komitəsinin sədri Sumqayıt teatrının əməkdaşları ilə görüşüb

Xəbər verdiyimiz kimi, bu il Sumqayıt Dövlət Dram Teatrının 55 illik yubileyidir. 12 mart 1968-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Sumqayıt Dövlət Gənclər Teatrı yaradılıb. Teatrın ilk tamaşası ("Müsyö Jordan və dərviş Məstəli şah") 1969-cu ilin 14 martında nümayiş olunub. 1970-ci ildə Sumqayıt Dövlət Dram Teatrı adlandırılıb.



Sumqayıt Dövlət Dram Teatrının 55 illik yubileyi ilə bağlı Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva teatrın bir qrup əməkdaşını qəbul edib.

Millət vəkili teatr sənətinin xalqın mədəni həyatında, cəmiyyətin inkişafında, xüsusilə gənc nəslin formalaşmasında teatrların rolu barədə söz açıb, 55 ildə zəngin sənət yolu keçən Sumqayıt Dövlət Dram Teatrının peşəkar milli teatr tariximizdə məxsusi yeri olduğunu deyib. Komitə sədri qardaş türkdilli ölkələrin teatr əməkdaşlığının da əhəmiyyətini qeyd edərək gələcəkdə beynəlxalq əməkdaşlıqda Sumqayıt teatrının kollektivini də görmək istədiyini bildirib, kollektivə uğurlar arzulayıb.

Teatrın direktor səlahiyyətlərini icra edən Əməkdar artist Vidadi Məmmədov, baş rejissor Xalq artisti Firudin Məhərrəmov, Əməkdar artist Fənarə Musayeva, truppa müdiri Əməkdar mədəniyyət işçisi Zöhrəli Əliyev görüşə və diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Sonda Qənirə Paşayeva kollektiv üzvlərinə xatirə hədiyyələri təqdim edib.

# 105 ilin 31 Martı

Azərbaycan tarixinin ən qanlı səhifələrindən olan 1918-ci ilin mart qırğınlarından 105 il ötür. Yerlərdə 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bir sıra tədbirlər keçirilib.



Tovuz rayonundakı Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində "31 Mart – tariximizin faciəli səhifəsi" mövzusunda tədbir keçirilib. Çıxışlar zamanı 105 il əvvəl erməni silahlı dəstələrinin xalqımıza qarşı törətdiyi soyqırımı haqqında məlumat verilib, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bu faciələrin anılmasının əhəmiyyəti vurğulanıb.

***

Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Tarixin sınağı" mövzusunda dərs keçirilib. İntiqam Əsgərli adına Masallı şəhər 3 saylı tam orta məktəbin müəllim və şagirdlərinin iştirak etdiyi dərsdə ermənilərin xalqımıza qarşı qanlı cinayətlərindən söz açılıb. Sonda şagirdlərin mövzu ilə bağlı fikirləri dinlənilib və "31 Mart soyqırımı" adlı fotosənədlərdən ibarət sərgiyə baxış olub.

***



Gəncə şəhər MKS-nin 9 saylı filialı "Tariximizin faciəli səhifəsi" adlı tədbir təşkil edib. Çıxış edənlər tarixin müxtəlif mərhələlərində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qətliamlardan danışıblar. Qeyd olunub ki, Prezident Heydər Əliyevin 1998-ci ildə imzaladığı fərmanla bu soyqırımı aktına siyasi-hüquqi qiymət verilib.

# Bölgələrdə müxtəlif səpkili tədbirlər



Sumqayıt şəhər S.Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbi Fortepiano şöbəsinin şagirdi Banu Əliyeva İspaniyada onlayn formatda keçirilən "World art games" beynəlxalq müsabiqəsində I yerə layiq görülərək diplomla mükafatlandırılıb.

Şagirdi müsabiqəyə müəlliməsi Rəna Salayeva hazırlayıb.

***

Goranboy rayon MKS-nin şəhər kitabxana filialı Heydər Əliyev Mərkəzində Aşıq Şəmşirin (1893-1980) anadan olmasının 130 illiyi münasibətilə "Dədə Şəmşir yaddaşlarda" adlı tədbir təşkil edib. Çıxış edənlər Azərbaycan aşıq sənəti haqqında məlumat verib, Aşıq Şəmşirin həyat və yaradıcılığından söz açıblar.

***



Masallı rayon Mərkəzi Kitabxanasında "Təhsil sistemi dövlətin inkişaf konsepsiyasıdır" mövzusunda tədbir keçirilib. Qeyd olunub ki, qloballaşan dünyanın çağırışlarına uyğun olaraq ölkəmizdə təhsil sisteminin yüksək səviyyəyə qaldırılması, təhsilin modernləşdirilməsi dövlətimizin başlıca hədəflərindəndir. Bu baxımdan Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" böyük əhəmiyyət daşıyır.

**Hazırladı: N.Məmmədli**

# "Örnək ömrün anları"

## Bölgələrdə "Heydər Əliyev İli" ilə bağlı tədbirlər davam edir

Sabirabad rayon Mədəniyyət Mərkəzində "Yaddaşlarda yaşayan lider" adlı tədbir təşkil edilib. Çıxışlarda dahi şəxsiyyətin siyasi iradəsi, uzaqgörənliyi nəticəsində mədəniyyət sahəsində böyük nailiyyətlərin əldə olunmasından bəhs edilib.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzində "Dahi lider" sənədli filmi nümayiş olunub. Filmi Hacıqabul şəhər 10 saylı tam orta məktəbin bir qrup müəllim və şagirdi izləyib.

***





Göygöl rayon Mədəniyyət Mərkəzinin tabeliyindəki Çaylı, Pənahlılar, Dozular kənd folklor evlərinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Dozular kəndində ağacəkmə aksiyası keçirilib. Aksiyada 60-dan çox meyvə ağacı əkilib.






***

Cəlilabad Dövlət Rəsm Qalereyasında Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş rəsm sərgisi təşkil edilib. Sərgidə qalereyanın dərnək üzvlərinin və şagirdlərin Ulu öndərə həsr olunmuş rəsmləri, həmçinin fotolar nümayiş olunub.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Örnək ömrün anları" adlı tədbir keçirilib. Çıxış edənlər Ulu öndərin hər bir vətəndaşımıza örnək olacaq addımlarından, onun Azərbaycan dövləti və xalqı üçün misilsiz xidmətlərindən söhbət açıblar. Sonda tədbir iştirakçıları "Unudulmaz dahi" adlı sərgi və mərkəzdəki eksponatlarla tanış olublar.

***

Zaqatala rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransda qeyd olunub ki, Ulu öndər müstəqil dövlətimizi qurmaq və onun gələcək inkişafının sağlam təməlini qoymaqla yanaşı, ölkə vətəndaşlarını səfərbər edən, xalqımızı vahid amal, əqidə, məqsəd ətrafında birləşdirən milli təlim – azərbaycançılıq ideologiyasını yaradıb.

"Heydər Əliyev İli" münasibətilə Qax şəhərində də konfrans keçirilib. Qeyd olunub ki, Ulu öndər Azərbaycan mədəniyyətinin, elminin inkişafını, tarixi-mədəni və milli-mənəvi dəyərlərimizin qorunmasını, ordu quruculuğunu həmişə diqqətdə saxlayıb. Tədbir iştirakçıları sonda Ümummilli liderə həsr olunmuş ədəbi-bədii kompozisiyanı izləyiblər.

***

Ağdam rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransda isə Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə veteran təşkilatlarının yaradılması və fəaliyyətinin təşviqi, 1994-cü ildə "Veteranlar haqqında" qanununun qəbul edilməsi, veteranlara dövlət qayğısının artırılması, müharibə, əmək və silahlı qüvvələr veteranlarının təşkilatlanmasından söz açılıb. Ulu öndərin ordu quruculuğundakı xidmətlərindən bəhs edən videoçarx nümayiş olunub.

***

Naxçıvan Dövlət Filarmoniyasının Ordubad rayon Mədəniyyət Sarayında Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert keçirilib. Konsert Ulu öndərin vaxtilə sevə-sevə dinlədiyi Ələkbər Tağıyevin "El yolunda" mahnısı ilə başlanıb. Sonra "Küçələrə su səpmişəm", "Sevinc mahnısı", "Ordubad", "O Naxçıvandır", "Yaşa, mənim xalqım", "Min yaşasın", "Ey Vətən oğlu" mahnıları və rəqslər tamaşaçılarda xoş ovqat yaradıb.

***

Xaçmaz RMİ-nin Quba rayonu üzrə nümayəndəliyi, Quba Rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Şimal regional mərkəzi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans keçirilib. Çıxışlarda Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə bu sahədə qəbul edilmiş dövlət proqramları barədə məlumat verilib. Qeyd olunub ki, qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslara söykənən siyasət bu gün də davam etdirilir. Mövzu ətrafında müzakirələr aparılıb.

# Azərbaycan-Özbəkistan kino əməkdaşlığını genişləndirmək üçün imkanlar var

## Özbək tərəfi bu sahədə ölkəmizlə daha sıx əlaqələr qurmaq istəyir

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Özbəkistanın Kinematoqrafiya Agentliyinin baş direktoru Firdavs Abduhalikovla görüşüb. Görüşdə Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutu Daşkənd filialının direktoru Eldor Yuldaşev, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru, səfirliyin birinci katibi Samir Abbasov da iştirak ediblər.



Söhbət zamanı Azərbaycan və Özbəkistan arasında kino sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, "İpək Yolunun incisi" Daşkənd Beynəlxalq Kino Festivalında Azərbaycanın daha geniş təmsil olunması məsələləri müzakirə olunub.

Firdavs Abduhalikov Özbəkistanda kino sahəsində həyata keçirilən işlər və islahatlardan danışıb, 1968-ci ildə əsası qoyulmuş və uzun illər fəaliyyət göstərmiş Daşkənd Beynəlxalq Kino Festivalının müəyyən fasilədən sonra 2021-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə bərpa edildiyini vurğulayıb. Qeyd edib ki, 2022-ci ildə festivala 40 xarici ölkə qatılıb. 2023-cü ildə XV Beynəlxalq Daşkənd Film Festivalının daha geniş səviyyədə təşkili planlaşdırılır.

Baş direktor ölkəmizlə əməkdaşlıqdan da danışıb, Özbəkistanda Azərbaycanın, Azərbaycanda isə Özbəkistanın kino günlərinin uğurla keçdiyini vurğulayaraq, gələcəkdə daha sıx əlaqələr üçün yaxşı imkan yarandığını söyləyib.

Hüseyn Quliyev Özbəkistanla Azərbaycan arasında çoxsahəli tərəfdaşlıq münasibətlərində kino sahəsində də əməkdaşlığın mühüm olduğunu vurğulayıb, səfirliyin birgə layihələrin həyata keçirilməsinə bundan sonra da dəstək göstərməyə hazır olduğunu deyib.

Bu ilin sentyabr ayında Azərbaycan kinematoqrafçılarının XV Daşkənd Beynəlxalq Kino Festivalında iştirakının təmin edilməsi, festivala təqdim olunacaq Azərbaycan filmlərinin dublyajı, retro fimlərimizin nümayişi, festival çərçivəsində Azərbaycan kino günlərinin keçirilməsi, qarşılıqlı olaraq hər iki ölkənin televiziya kanallarında bədii filmlərin nümayişi, filmlərin qarşılıqlı mübadiləsi, ötən il Bakıda keçirilən Özbəkistan kino günlərində nümayiş etdirilən "Əbədi dostluq və qardaşlıq" sənədli filminin ikinci hissəsinin çəkilişinə dəstək barədə ümumi razılığa gəlinib.

Görüşün sonunda Firdavs Abduhalikov səfirə "Özbəkistan kinematoqrafiyası" kitabını, Hüseyn Quliyev isə baş direktora "Qarabağ işğaldan əvvəl və sonra" kitabını hədiyyə edib.

Qonaqlar üçün "Özbəkfilm" pavilyonlarına ekskursiya təşkil olunub. Burada yaradılan şərait, müxtəlif tarixi filmlərin çəkilişi üçün istifadə edilən dekorasiya və avadanlıqlarla tanışlıq olub.

# Tarixi həqiqətlərin ünvanı – Quba Soyqırımı Memorial Kompleksi

*əvvəli səh. 1-də*

Tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova bildirib ki, 1918-ci ilin mart hadisələri zamanı təkcə Quba qəzasının 167 kəndi tamamilə dağıdılıb. Bu kəndlər, Quba şəhəri talanlara və yanğınlara məruz qalıb, qəzada müsəlman və qismən də yəhudi əhalisi kütləvi şəkildə öldürülüb. Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb.

Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir və 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib. 2007-ci ilin iyulundan etibarən AMEA-nın Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılıb, 2008-ci ilin sentyabrında tədqiqat işləri başa çatdırılıb. Məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu təsdiqlənib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıb.





Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub. Həmin mərasimdə çıxış edən Prezident İlham Əliyev deyib: "Sovet dövründə təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, - onların da mənfur adları orada göstərilir, - Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi... Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır".

# Dünya şöhrətli bakılı

## Mstislav Rostropoviçin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş musiqi axşamı

Martın 27-də dünya şöhrətli musiqiçi, violonçel ifaçısı, dirijor, bəstəkar, həmvətənimiz Mstislav Rostropoviçin (1927-2007) anadan olmasının 96-cı ildönümü tamam oldu. Maestronun zəngin yaradıcılığı dünya musiqi mədəniyyətində silinməz izlər qoyub.

M.Rostropoviç 1927-ci il martın 27-də Bakıda violonçelçi L.Rostropoviç və piano ifaçısı S.Fedotovanın ailəsində dünyaya göz açıb. Evdəki sənət ab-havası onu kiçik yaşlarından musiqiyə bağlayıb. Rostropoviçlər ailəsi 1931-ci ildə Bakıdan Moskvaya köçüb. Amma gələcəyin böyük musiqiçisi doğulduğu şəhəri, Azərbaycanı unutmayıb.

1971-72-ci illərdə Azərbaycanın rəhbəri Heydər Əliyevin dəvəti ilə M.Rostropoviç qastrol səfərləri ilə Bakıya gəlib. Maestro Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və dirijorlar – Rusiyanın Əməkdar artisti pianoçu Aleksandr Dedyuxin və Azərbaycanın Xalq artisti Niyazi ilə birgə konsertlər verib.

İllər sonra, 1997-ci ildə Prezident Heydər Əliyevin dəvəti ilə M.Rostropoviç yenidən Bakıya gəlir. Maestronun 70 illik yubileyi təntənəli şəkildə qeyd olunur. Prezident Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildə musiqiçinin ailəsi ilə Bakıda yaşadığı ünvanda Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyi yaradılır, muzeyin yerləşdiyi küçəyə də Rostropoviçlərin adı verilir.

M.Rostropoviç bundan sonra, demək olar ki, hər il Bakıya gəlirdi. O, 1998-ci ildə "Şöhrət", 2002-ci ildə "İstiqlal" ordenləri ilə, 2007-ci ildə isə Azərbaycanın ən yüksək mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilib.



Rostropoviçlərin ev-muzeyində maestronun doğum günü hər il xüsusi tədbirlərlə qeyd olunur. Martın 29-da muzeydə Mstislav Rostropoviçin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Adagio" adlı klassik musiqi axşamı keçirilib.

Konsertdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbi şagirdlərinin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib. Muzeyin əməkdaşları maestronun həyat və yaradıcılığından söz açıblar. M.Rostropoviçə həsr edilmiş "Günəbaxan" sənədli film nümayiş olunub.

Sonda şagirdlərə muzey tərəfindən təşəkkürnamələr təqdim edilib.

# "Ulu öndərin tövsiyələrinə bu gün də musiqiçi kimi əməl edirəm"

Yaponiyada yaşayan azərbaycanlı pianoçu Gülnarə Səfərova müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.



Diaspora İş üzrə Dövlət Komitəsindən bildirilib ki, musiqiçi 1995-ci ilin martında Türkmənistanda keçirilmiş beynəlxalq müsabiqədə Azərbaycanı təmsil etdiyini deyib. Qeyd edib ki, müsabiqədə III yeri tutaraq laureat kimi Bakıya qayıtdıqdan sonra daha bir qürurverici hadisə yaşayıb. 1995-ci il aprelin 8-də Bakı Musiqi Akademiyasında Azərbaycan Prezidenti Heydər Əliyevin beynəlxalq müsabiqələrin qalibləri ilə görüşü keçirilib.

Ümummilli lider qaliblərə təbrik edərək deyib: "Çox sevindirici haldır ki, Azərbaycanın böyük taxrə malik olan incəsənəti, musiqi sənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirir. Eyni zamanda xalqımızın içində böyük, fitri istedadlı insanların daim olmasını, yaşamasını göstərir. XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçib. Xüsusən incəsənətimizin böyük bir sahəsi olan musiqidə professional musiqi yaranıb. Bu sahədə də şübhəsiz ki, dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır. Əsasını mərhum Üzeyir Hacıbəylinin qoyduğu böyük bir məktəb. Bu məktəb əsrin əvvəlində yaranıb. İndi, XX əsrin axırlarında biz bu məktəbin nə qədər böyük yol keçdiyini, eyni zamanda xalqımız üçün nə qədər faydalı olduğunu, onun hörmətini, şərəfini nə qədər yüksəklərə qaldırdığını və xalqımızın ümumi mədəniyyətinə necə böyük təsir etdiyini görürük və bunun şahidiyik".

Gülnarə Səfərova qeyd edib ki, görüş zamanı Heydər Əliyevin səsləndirdiyi fikirlər onun incəsənət adamlarına və ümumilikdə Azərbaycan mədəniyyətinə bəslədiyi həssas münasibətin, qayğının təzahürü idi.

Ulu öndər Heydər Əliyevlə görüş zamanı fortepianoda ifa etdiyini də xatırlayan Gülnarə Səfərova deyib: "Ulu öndər təbrik zaman mənimlə ifa etdiyim əsər haqqında da danışdı. Onun klassik janrda yaradılan əsərin incəliyini duyması məni həqiqətən də, heyran etdi. Məndən harada çalışdığımı da soruşdu. Bakı Musiqi Akademiyasında gənc müəllim kimi çalışdığımı biləndə mənə pedaqoji fəaliyyətimdə də uğurlar arzuladı. Dedi ki, musiqi təhsilində yeni metodikanın yaradılması ilə Azərbaycanın adının dünyada daha geniş yayılmasını arzu edir. Həmin görüşdən illər keçib. Amma həmin günlə bağlı xatirələri indiyədək unutmamışam. Hazırda Vətənimdən uzaqda olsam da, Azərbaycanı Yaponiyada layiqincə təmsil etməyə və Ulu öndər Heydər Əliyevin verdiyi tövsiyələri bu gün də peşəkar musiqi fəaliyyətimdə nəzərə alır, onları gerçəkləşdirməyə çalışıram".

# Muğam variasiyalarını ilk dəfə pianoda ifa etmişdi

## Xədicə Qayıbovanın xatirəsi anılacaq




Bu il Azərbaycanın ilk qadın pianoçularından biri, muğam variasiyalarını ilk dəfə fortepianoda ifa etmiş Xədicə Qayıbovanın (1893-1938) anadan olmasının 130 illiyidir. Yubiley münasibətilə mayın 1-də Beynəlxalq Muğam Mərkəzində musiqiçiyə həsr edilmiş xatirə gecəsi təşkil olunacaq.

Xatirə gecəsində tarzən Əməkdar artist Sahib Paşazadənin müşayiəti ilə solistlərin ifasında yerli və xarici bəstəkarların musiqiləri səsləndiriləcək.

Xədicə Qayıbova Tiflisdə ünlü ruhanilərdən Osman bəy Müftizadənin ailəsində dünyaya gəlib. Şəhərdəki "Müqəddəs Nina" qızlar məktəbində oxuyub, burada mükəmməl musiqi dərsləri də alıb.

O həm Şərq, həm də Avropa musiqisinin gözəl bilicisi kimi Azərbaycanın mədəni həyatında fəal iştirak edib. Onun təşəbbüsü ilə "Qısamüddətli Şərq musiqi kursları" təşkil edilib, uşaq xoru yaradılıb. Dövrünün görkəmli sənətkarları ilə çalışaraq Azərbaycan musiqi folklorunun toplanması istiqamətində də səylərini əsirgəməyən Xədicə Qayıbova repressiya qurbanı olub.

# Akademik Rus Dram Teatrı beynəlxalq festivala qatılacaq

Aprelin 7-dən 16-dək Sankt-Peterburqda "Rusiyada görüşlər" adlı XXV Beynəlxalq Rus Teatrları Festivalı keçiriləcək.

Festival görkəmli rus dramaturqu Aleksandr Ostrovskinin anadan olmasının 200 illiyinə həsr olunub. Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin teatr kollektivləri "Baltika evi" teatr-festivalının binasına toplaşacaqlar.

Ölkəmizi festivalda Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı təmsil edəcək. Aprelin 8-də teatr M.Lermontovun "Maskarad" tamaşasını (rejissor Xalq artisti Aleksandr Şarovski) nümayiş etdirəcək.



Festival iştirakçıları tamaşaları müzakirə edəcək, diskussiyalar aparacaq, səhnə nitqi və aktyorluq sənəti üzrə ustad dərslərində, teatrın quruluş hissəsinin mütəxəssisləri üçün məşğələlərdə iştirak edəcəklər. Festivalın yubileyi ilə əlaqədar MDB ölkələrinin rus teatrlarının son 25 il ərzində yaratdıqları ən maraqlı tamaşalardan bəhs edən "25 il birlikdə" adlı fotosərgi də açılacaq.

# "Solğun çiçəklər" yenidən Şuşa teatrının səhnəsində

Aprelin 8-də Şuşa Dövlət Musiqili Dram Teatrında görkəmli dramaturq Cəfər Cabbarlının "Solğun çiçəklər" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunacaq. Səhnə əsərinə teatrın rejissoru Lalə Şirinova quruluş verib.

Cəfər Cabbarlının ailə-məişət mövzusunda yazdığı ilk sentimental melodramatik əsərində özünəməxsusluğu, ayrıca bir fərdə və insanlar arasındakı münasibətlərə xüsusi görmə bucağından yanaşmasını önə çəkir.

"Solğun çiçəklər" Saranın əmisi oğluna olan saf məhəbbətindən və Saranın analığı olan Gülnisənin cinayətindən bəhs edir. Gülnisə Saranın atasını zəhərləməklə kifayətlənməyib onun bütün var-dövlətini də ələ keçirmək istəyir. Bütün bu işlərin üstü açılmasın deyə Bəhramı Saradan ayırıb öz doğma qızıyla evləndirir. Sara vəfasızlığın qurbanı olur.

# Füzuli teatrında "Gülüş günü" ilə bağlı premyera

Aprelin 1-də Füzuli Dövlət Dram Teatrında "Molla Nəsrəddin" tamaşasının premyerası keçiriləcək. Səhnə işinin nümayişi "1 aprel – Gülüş günü"nə həsr olunacaq.

Teatrın 2023-cü ilin repertuar planına daxil olan tamaşanın müəllifi Xaqani Əliyev, quruluşçu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanzadədir.

Tamaşada rolları Sehran Xanlarov, İntizar Quliyeva, Asif Şirinov, Qaçaq Qarayev, Əli Hüseynov, Günel Hacıyeva, Elçin Məmmədov, Vüqar Babayev, Emin Abışov, Vüsal Həsənov və başqaları oynayırlar.



Keçmişlə bu günün sintezi olan tamaşa məşhur lətifə qəhrəmanı Molla Nəsrəddinin evlənmə əhvalatından bəhs edir. Şən musiqilər və kütləvi rəqslərlə bol olan səhnə əsərində maraqlı və gülməli hadisələr bir-birini əvəz edir.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (21)

### 1980-ci il 17 yanvar

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Bakıda inqilabçı A.Caparidzenin abidəsinin (heykəltəraş Ömər Eldarov; abidə Azərbaycan SSR Dövlət mükafatına (1982) layiq görülüb) açılışında nitq söyləyib.

### 1980-ci il 20 fevral

Heydər Əliyev Bakıda Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin abidəsinin (heykəltəraşlar Tokay Məmmədov və İbrahim Zeynalov) açılışında iştirak edib.

### 1980-ci il 25 mart

Heydər Əliyev Xalq yazıçısı Süleyman Rəhimovun anadan olmasının 80 illiyi münasibətilə keçirilən yubiley mərasimində iştirak edib.

### 1980-ci il 22 aprel

Heydər Əliyev Bakıda "SSRİ Xalqlarının Dostluğu Sarayı" muzey müəssisəsinin açılış mərasimində nitq söyləyib. Azərbaycan Elmlər Akademiyasının nəzdində yaradılan muzey Dağüstü parkda (S.M.Kirovun abidəsinin yanında) yerləşirdi.

### 1980-ci il 15 may

Heydər Əliyev Azərbaycan mədəniyyət xadimlərinə mükafatların təqdimetmə mərasimində çıxış edib.

*"Bu gün Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinə yüksək mükafatlar təqdim olunur. Mən böyük məmnuniyyət hissi ilə bu şərəfli vəzifəni yerinə yetirirəm.*

*SSRİ Xalq artisti Rəşid Behbudov musiqi sənətinin inkişafında görkəmli xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adına (SSRİ Ali Soveti Rəyasət Heyətinin 1980-ci il 23 aprel tarixli fərmanı ilə – red.) layiq görülmüşdür, ona "Lenin" ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim olunur... 40 ildən çoxdur ki, o, Azərbaycan mədəniyyətinə sədaqətlə xidmət edərək öz yaradıcılığı ilə Azərbaycan musiqi sənətinə parlaq səhifə yazmışdır... Respublikamızın ictimaiyyəti Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanı adının verilməsini bizim bütün Azərbaycan incəsənətinə, musiqi yaradıcılığına yüksək qiymət kimi qarşılamışdır...*

*Sosialist Əməyi Qəhrəmanı, Xalq yazıçısı Süleyman Rəhimov sovet ədəbiyyatının inkişafında xidmətlərinə görə və anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdir. Süleyman Rəhimov Azərbaycan ədəbiyyatında roman janrının inkişafına böyük xidmət göstərmişdir... Süleyman Rəhimov eyni zamanda partiya xadimi və ictimai xadim kimi tanınmışdır, uzun illər partiya işində çalışmış, Azərbaycan Yazıçılar İttifaqının sədri olmuşdur...*

*Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi İmran Qasımov "Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür. Bu ad ona 40 ildən artıq bir müddətdə Azərbaycan ədəbiyyatının inkişafı sahəsində necə bir fədakar əsgər kimi çalışdığına görə, böyük ədəbi və ictimai fəaliyyətinə görə verilmişdir. İmran Qasımov görkəmli nasir, dramaturq, publisist və eyni zamanda fəal ictimai xadimdir. Uzun illər boyu Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin katibi olmuşdur, son illərdə isə Yazıçılar İttifaqına başçılıq edir...*

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İlyas Əfəndiyev "Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür. İlyas Əfəndiyev təxminən əlli ildir ki, Azərbaycan ədəbiyyatında fəaliyyət göstərir, bütün istedadlı yaradıcılığı ilə ona bağlıdır. İlyas Əfəndiyevin əsərləri həm səlis, gözəl bədii dilinə, həm dərin məzmununa görə, həm də yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır...*

*Şair Nəbi Xəzri "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. Nəbi Xəzri öz şeirlərində xalqımızın həm qəhrəman keçmişini, həm də bugünkü həyatını və sabahını yüksək ustalıqla, fitri sənətkarlıqla tərənnüm edir. Onun əsərləri dillərdə əzbər olub, bir çox şerlərinə musiqi bəstələnib, incəsənətimizi bəzəyən mahnılar yaradılıb... Nəbi Xəzri eyni zamanda Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti rəyasət heyətinin sədridir... Bu cəmiyyət ədəbiyyat və incəsənətimizin, Azərbaycanın, bütün xalqın nailiyyətlərinin xaricdə gözəl təbliğatçısıdır...*

*Ədəbiyyatın inkişafında xidmətlərinə, mətbuatda səmərəli işinə görə və anadan olduğu gün münasibətilə "Azərbaycan qadını" jurnalının baş redaktoru Xalidə Hasilova "Qırmızı Əmək Bayrağı" ordeninə (SSRİ Ali Soveti Rəyasət Heyətinin 1980-ci il 18 aprel tarixli fərmanı ilə – red.) layiq görülmüşdür. O, öz bədii əsərlərində və publisistik çıxışlarında xalqın həyatını tərənnüm edir. Səkkiz ilə yaxındır ki, "Azərbaycan qadını" jurnalının baş redaktoru vəzifəsini müvəffəqiyyətlə yerinə yetirir...*

*Bu gün adlarını çəkdiyim yazıçı və şairlərin, demək olar ki, hamısı öz yaradıcılığı ilə yanaşı bədii tərcümə ilə də məşğul olur. Yazıçı İshaq İbrahimov da tərcümə işində böyük fəallıq göstərir. İshaq İbrahimovun bu sahədə böyük işi, habelə hekayə, kinossenariçi kimi və başqa ədəbi janrlarda fəaliyyəti onun necə bir görkəmli ədəbiyyat xadimi və yazıçı-tərcüməçi olduğunu aydın göstərir. Bu fəaliyyətinə görə İshaq İbrahimov "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.*

*Beləliklə, biz bu gün təltif olunanlar haqqında öz fikirlərimizi və duyğularımızı ifadə etdik. Mənə elə gəlir ki, buraya toplaşanların hamısı deyilən sözlərə şərikdir. Deyə bilərəm ki, bu xoş sözlər mənim oxucu kimi, ədəbiyyat və incəsənətimizin pərəstişkarı kimi ürək sözlərimdir. Bu sözlər təltif olunanların xidmətləri, onların fəaliyyəti və yaradıcılığı ilə əlaqədar sözlərdir.*

*Əmin olduğumuzu bildirmək istəyirəm ki, bu xoş sözlər və verilən qiymətlər, ürək arzuları və səmimi duyğular təltif olunanları daha da ruhlandıracaq, onları daha qızğın fəaliyyət göstərməyə, yeni əsərlər yaratmağa sövq edəcək, onlar üçün müəyyən qədər ilham mənbəyi olacaqdır...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

Bir ömür sənət

# Biri vardı, biri yox...

Bütün nağıllar belə başlayır. Onların da nağılı eləcə başlamışdı. Sadəcə, aradan keçən 50 ildə itkini dadanadək. İndi onlardan – sadiq iki dostdan, teatr sevdalısından, sənət fədaisindən biri var, biri isə...

22 mart, saat 12:00. Salyan şəhəri, Salyan Dövlət Kukla Teatrının önü. Bakıdan gələn həmkar kollektivi – Azərbaycan Dövlət Kukla Teatrının əməkdaşlarını qonaqpərvərliklə qarşılayan salyanlı kuklaçılar və onlara qoşulan tamaşaçılar zala tələsirlər. Çoxluq içərisindən bir yaşlı kişi “Yaz girəndən təzyiqim oynayır. Təzədn durub iki dərman atdım. Təzyiqimə də dedim ki, sən nə eləsən də gedəcəm. Özünü yaxşı apar, Bakıdan həmkarlarım gəlib. Üstəlik, mən ilk addımlarımı o teatrda atmışam. Necə qulaqburması vermişəmsə, hələ siqnalı gəlmir”, – deyib əlini-əlinə vuraraq güldü. Yanındakılar ona qoşulub gülüşdülər.

Əməkdar artist, kuklaçı Mansur Mansurovun qızı, aktrisa Səriyyə Mansurovaya dönüb soruşuram: “Bayaq gördüm, o kişi ilə illərin həsrətlisi kimi görüşdünüz. Kimdi bu baməzə ağsaqqal?”.

Təbəssümü üzünü heç vaxt tərk etməyən Səriyyə xanım təəccüblə: “A, bəyəm tanımırsuz? Salyan Kukla Teatrının yaradıcılarından Cahangir əmidi də. Atamın gənclik dostu Cahangir Qaraşov”, – deyir.

Onun sonra dediklərini yaddaşımın bir küncünə sıxaraq milli teatrın 150 illiyi münasibətilə baş tutan bu görüş-səfərin ərməğan etdiyi “əla müsahib fürsəti”ni əldən verməyib Cahangir müəllimin yanında bənd alıram. Ayaqüstü söhbət edirik. Özü də onun da, mənim də çox sevdiyimiz məkanda – teatrın rekvizit otağında.

Bu yerdə həmsöhbətim haqqında qısa bir məlumat verim.

Cahangir Qaraşov 1945-ci ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. Bakı Kitabxanaçılıq Texnikumunun (indiki ADMİU nəzdində Humanitar Kollec) Mədəni-maarif fakültəsində təhsil alıb. 1965-ci ildə texnikumu bitirib rayona qayıdıb, Şorsulu kənd klubunda müdir işləyib. Sonra Bakıda – Azərbaycan Televiziya və Radio Komitəsində rejissor köməkçisi, Azərbaycan Dövlət Kukla Teatrında aktyor kimi çalışıb.

1972-ci ildə yenə Salyana qayıdan C.Qaraşov rayon Mədəniyyət evində işləyir, burada kukla dərnəyi yaradır. Dərnək 1975-ci ildə Xalq teatrı statusu alır. Bu arada C.Qaraşov da ali təhsil alır, 1980-ci ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirərək doğma rayonunda aktyor və rejissor kimi fəaliyyətini davam etdirir. 1981-ci ildə İspaniyada keçirilən Ümumdünya folklor festivalında laureat adına layiq görülür, 1990-cı ildə Ukraynada, 1991-ci ildə Estoniyada keçirilən Azərbaycan mədəniyyəti ongünlüklərində iştirak edir. 1994-cü ildə isə illərin əməyini verdiyi Salyandakı Kukla teatrı dövlət statusu alır.





Cahangir Qaraşovun fədakar əməyi yüksək qiymətləndirilir, müxtəlif fəxri fərmanlarla təltif olunur, Əməkdar mədəniyyət işçisidir.

Cahangir müəllimi Bakı dövründən söhbətə tutdum. İstədim onun paytaxt nostalgiyasına baş vurum.

“1966-cı ildə Azərbaycan Dövlət Kukla Teatrında işə qəbul olundum. Onu deyim ki, teatra marağım uşaqlıqdan vardı. Rəhmətlik Qüdrət Səmədov (Sosialist Əməyi Qəhrəmanı, Sarvan kəndində kolxoz sədri olub – red.) kəndimizdə klub tikdi, bədii özfəaliyyət dərnəyi yaratdı. Ruhu şad olsun, Əvəz müəllim bizə sənətə sevgi yaratdı. İlahi, necə gözəl günlər idi. Tay-tuşlarımız çöl-bayırda danışıb-gülür, gəzib-dolanır, biz isə saatlarla o dərnəkdə məşqlər edir, özümüzü böyük aktyor hesab edərək xəyali şöhrəti dadırdıq. Bakıya İncəsənət İnstitutuna oxumağa gedəndə valideynlərim bilmədi. Qoymazdılar da. Atam artıq tələbə olduğumu biləndə hirslə “Artist olub, atılıb-düşəcəksən də camaatın qabağında”, – dedi. Elə pis olmuşdum bu sözə. Gənclik enerjisi ilə üsyan edərək “Ata, mən aktyor olacam, insanların obrazın yaradacam, artist yox”, – deyib qəhərləndim. İndiki kimi yadımdadı, atam da dinmədi. Hiss elədim, artist ilə aktyorun fərqli olduğuna inanmışdı (gülürük).

Qoy, yadımdaykən deyim, tələbə ikən Akademik Milli Dram Teatrında kütləvi səhnələrdə oynamışam. İndiki dövr də deyildi ki, gedib o böyük sənətkarlara yaxınlaşıb, şəkil çəkdirəsən. Təsəvvür edirsiz, Ələsgər Ələkbərov kimi nəhəngin oynadığı dövrdə səhnədə idim. Həyəcandan bilmirdim nə edim”.

Bu məqamda akademik səhnədən kukla teatrına gedən yolundan danışırıq. Deyir, mən kuklaçı olmaq üçün yaranmışdım: “Anladım ki, akademik teatrda sıravi aktyor olmaqdansa, kuklaçı kimi çalışmaq yaxşıdı. Amma orada da uzun müddət qala bilmədim. Vətən çağırdı, Salyana qayıtdım”.



Paytaxtdan onu doğma Salyana sevgi ilə yanaşı həm də tələb gətirir. Əvvəl çox darıxsa da, Bakıdakı dostları “Nə var e Salyanda, gəl, sənin yerin buradı” desələr də, gənc aktyorun rayonunda böyük teatr işləri görmək arzusu üstün gəlir. Sonra ailə qurur, başı ev-eşiyə, qəsəbə klubuna, dərnəyə, həvəskarların teatrına qarışır və böyük şəhəri unudur. Elə müxtəlif obrazlar yaratmaq arzusunu da.

Söhbətin bundan sonrakı hissəsində gələn il yaranmasının 30 ilini qeyd edəcəyimiz Salyan Dövlət Kukla Teatrından danışdıq.

“Gördüyünüz Salyan Dövlət Kukla Teatrını dərnək kimi 1973-cü ildə yaratmışdıq. İki il sonra ona Xalq teatrı statusu verildi. Xeyli tamaşalar hazırladıq, Salyan və ətraf rayonları gəzdik. Hətta ölkədən kənarda da çıxışlarımız oldu. Əməyimiz bəhrəsini verdi və teatr 1994-cü ildə indiki statusunu aldı.

Yaqin soruşmaq istəyirsən ki, niyə Bakını qoyub Salyana qayıtdım. Rəhmətlik Xalq artisti Arif Quliyev tələbə yoldaşım olub. Hər rayonumuza gələndə mənə “Bakıda qalsaydın, Xalq artisti olardın” deyirdi. Mən də, kefimi pozmadan “Nə olar, mən də Salyan artistiyəm”, – deyirdim. Gülürdük. Ruhu şad olsun, haqlı idi. Amma mən sənət taleyimlə razıyam. Hə, bir də mən, sən, o, bölgəyə, rayonlara qayıtmasa, burada vəziyyət necə olar?

1973-cü ildə kukla dərnəyində ilk tamaşamız da “Artıq tamah baş yarar” (Ə.Səmədli) oldu. Maraqla qarşılandı. Allah sənə rəhmət eləsin, ay Əli. Necə sevinirdik. Artıq buralarda hamı bizi tanıyırdı...”.

Hə, söhbətin bundan sonrası bayaqkı “biri vardı, biri yox”un təəssüf ki, artıq olmayanı – Cahangir müəllimin əvəzsiz dostu, Salyanda kukla teatrının, ümumən mədəni mühitin formalaşmasında böyük əməyi olan Əlizadə Əliyev haqqında olacaq.

“Əlizadə onda Mədəniyyət evində metodist işləyirdi. Tamaşaların 4-5 obrazını ikimiz oynayırdıq. Kuklaları da Bakıdan, Dövlət Kukla Teatrından gətirirdik. Ümumən onlar bizə repertuardan çıxan tamaşaların kuklalarını verir, biz də onlardan tamaşalar qururduq. Əlizadəylə gecə-gündüz repertuar üzərində çalışmağa, kənd-kənd gəzib tamaşalar göstərməyə başladıq. Çox çətin idi. Şərait yoxuydu. Amma qəribə bir həvəs vardı bizdə. Həvəskarlar da ətrafımıza toplandı. İndi bu teatrda çalışan yaşlı nəslin çoxu bizim o dərnəkdə olub. Sonrasını bilirsiz. Bizim tamaşalar rəğbətlə qarşılandı və nazirlik bizə dövlət statusu verdi. Əlizadə direktor oldu, mən baş rejissor. Amma yenə də, necə deyərlər, teatrın nökəri olduq. Özü də səvə-səvə. İndi gördüyünüz bu bina Mədəniyyət evinin binası idi. Bizə də bir otaq verdilər. Şərait olmasa da həvəs, istək dəhşət idi. İki dost əl-ələ verərək işlədik. Kukla teatrından əlavə folklor qrupu, başqa dərnəklər də yaratdıq. Salyan deyəndə ilk yada düşənlər biz ikili idik. Sadiq dostum sonra məni tək qoyub getdi. Bir kiçik oğlumun vaxtsız ölümü (Cahangir müəllimin Birinci Qarabağ müharibəsi şəhidi Nail Qaraşovun atasıdır), bir də onun itkisi ilə heç barışa bilmirəm...”.

Gözləri bulaq kimi qaynasa da, özünə toxtaqlıq verərək “Qoca kişiyəm, məni kövrəltmə, dur, gedək görək bakılı kuklaçılar nə gətirib”, – deyib ayağa qalxdı. Foyedəki lövhəni qırışlı əli ilə göstərərək “Bax, Əli ilə şəklimi cüt asıblar” dedi. Bizim nağılımız da belə başlamışdı”, – deyib artıq üçüncü zəngi vurulan tamaşa tələsdi...

**Həmidə Nizamiqızı**
**Salyan-Bakı**

# Belarusda Azərbaycanın Milli Qəhrəmanı Anatoli Davidoviçin xatirəsi anılıb

Azərbaycan Respublikasının Belarus Respublikasındakı Səfirliyinin əməkdaşları və hərbi attaşelik nümayəndələri Azərbaycanın Milli Qəhrəmanı Anatoli Nikolayeviç Davidoviçin anadan olmasının ildönümü ilə əlaqədar onun məzarını ziyarət ediblər. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Məlumata görə, sonra səfirlik və hərbi attaşelik nümayəndələri Milli Qəhrəmanın Slutsk şəhərində yaşayan anası Kima Davidoviçə baş çəkib, onun güzəranı ilə maraqlanıblar.

Birinci Qarabağ müharibəsi zamanı, 1992-ci ilin iyunun 13-də qəhrəmancasına həlak olan mayor A.Davidoviçin şücaətinin Azərbaycan və Belarus xalqları arasında dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirdiyi, xatirəsinin hər iki ölkədə daim ehtiramla yad olunduğu xüsusi qeyd edilib.

K.Davidoviç oğlunun xatirəsinə olan ehtirama, eləcə də özünə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə, Azərbaycanın Belarusdakı Səfirliyinə minnətdarlığını bildirib. Milli Qəhrəmanın anası, həmçinin 2019-cu ildə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun onu xəstəxanada ziyarət etməsini məmnuniyyət hissi ilə xatırlayıb.





# Tariximizin qan yaddaşı

“Böyük Ermənistan” yaratmaq xəyalı ilə yaşayan erməni qəsbkarları XX əsrin əvvəllərində dəfələrlə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçiriblər. Məqsəd XIX əsrin birinci yarısından etibarən xarici ölkələrdən köçürüldükləri tarixi Azərbaycan torpaqlarına sahiblənmək, yerli əhalini bu kimi barbarlıqlarla yurd-yuvasından etmək, etnik təmizləmə aparmaq idi.

Həmin dövrdə ermənilərin xalqımıza qarşı apardıqları qırğın siyasətinin kulminasiya nöqtəsi 1918-ci ilin mart-aprel aylarında, demək olar ki, ölkəmizin bütün bölgələrində törətdikləri soyqırımı oldu. Bu soyqırımı miqyasına görə bəşər tarixində baş vermiş ən qanlı faciələrdən sayılır. Çar Rusiyasında baş vermiş 1917-ci ilin fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz mənfur niyyətlərini bolşevik bayrağı altında reallaşdırmağa çalışırdılar. 1918-ci ilin mart ayından etibarən Bakı Kommunası tərəfindən “əksinqilabçılarla mübarizə” şüarı altında ermənilər Bakı quberniyasının azərbaycanlılardan təmizlənməsi planını həyata keçirməyə başladılar.

Tarixi sənədlərdən aydın olur ki, 1918-ci ilin mart-aprel aylarında on minlərlə dinc azərbaycanlı sakin milli mənsubiyyətinə görə qətlə yetirilib. O da məlumdur ki, 1917-ci ildə çarizm süqut edərkən Qafqazı, o cümlədən Azərbaycanı tərk edən rus hərbi birləşmələri silahlarını erməni millətçilərinə vermişdilər. Bu fürsətdən yararlanan ermənilər qəflətən kənd və şəhərlərimizin əliyalın əhalisinə hücumlar edir, uşaq, qoca, qadın demədən minlərlə insanı amansızlıqla öldürürdülər. Erməni vandalları qətllərlə yanaşı, tarixi mədəni mirası da hədəfə almışdılar. Xüsusilə Bakı şəhərində milli memarlıq abidələri, məktəb, xəstəxana və məscidlər dağıdılır. Bakı şəhərinin böyük bir hissəsi yandırılaraq xarabalığa çevrilmişdi.

Bu qanlı qırğınlar Bakı şəhəri ilə məhdudlaşmamışdı. Şamaxı, Quba, Şuşa, Cəbrayıl, Zəngəzur qəzalarında, habelə Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə də amansızlıqla həyata keçirilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Nazirlər Kabinetinin 15 iyul 1918-ci il tarixli qərarı ilə faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradılır. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum təsis edilir. Eyni zamanda 31 Mart ümummilli matəm günü elan olunur. Beləliklə, azərbaycanlılara qarşı başladılan soyqırımı və torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməyə cəhd göstərilir. Təəssüf ki, Cümhuriyyətin süqutu ilə bu istiqamətdə də həyata keçirilən işlər yarımçıq qalır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tariximizin bu qanlı və qaranlıq səhifələrinə bir daha işıq tutuldu. Uzun illər gizli saxlanılan və üzərinə qadağa qoyulan əsl həqiqətlər araşdırılmağa başlandı. Prezident Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi və həqiqətin üzə çıxarılması üçün səylər artırıldı. Həmin dövrdən 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

2000-ci illərdən bu istiqamətdə aparılan araşdırmalar nəticəsində tarixin qaranlıq səhifələrinə işıq salınır. Mənfur erməni cəlladlarının ürək dağlayan cinayətlərinin miqyası üzə çıxarılır. Tədqiqatlar nəticəsində toplanan məlumatlardan müəyyən edilib ki, erməni vandalları təkcə Şamaxı qəzasında təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfəri qətlə yetiriblər. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

Bakıda törədilən soyqırımının şahidi, sonra bu istiqamətdə istintaq aparan komissiyanın üzvlərindən alman əsilli A.Y.Kluqe yazır ki, ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır və süngü ilə dəlmə-deşik edirdilər... Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etmirdilər.

Araşdırmalarda qeyd edilir ki, Bakıda təkcə bir həftə ərzində 12 mindən çox dinc insan vəhşicəsinə qətlə yetirilmişdi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə verməmişdilər. Cəsədləri daha çox yanan binalara atır, quyulara və dənizə tökmüşdülər. S.Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin şəhərdə hakimiyyətinin tam bərqərar olunması qətlə yetirilənlərin dəqiq sayının hesablanmasına imkan verməyib.

İranın Bakıda konsulu olmuş Məhəmməd Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanıb dəfn olunub. Menşeviklərin “Naş qolos” (“Bizim səs”) qəzeti həmin günləri belə təsvir edib: “Hər tərəf meyitlərlə doludur – yanıb kül olmuş, doğranmış və eybəcər hala salınmış meyitlər...”.

Britaniyanın Bakıda olan briqada generalı R.Qortonun Londona göndərdiyi 8 dekabr 1918-ci il tarixli sənəddə 20 min, Xalq Cümhuriyyətinin Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox azərbaycanlının soyqırımına məruz qaldığı göstərilir...



Paris Sülh Konfransında Xalq Cümhuriyyəti nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşov ABŞ Prezidenti V.Vilsona 28 may 1919-cu il tarixli müraciətində ona digər sənədlərlə yanaşı, Fövqəladə İstintaq Komissiyasının materiallarını da təqdim edib. Bundan sonra obyektiv informasiya toplamaq üçün Cənubi Qafqaza ABŞ nümayəndə heyətinin göndərilməsi məqsədəuyğun sayılıb. Həmin ilin yayında Bakıya göndərilən general Harbord hadisələr barədə obyektiv məlumat toplamaq üçün müxtəlif şəxslərlə görüşüb.

Bakıda fəaliyyət göstərən rus və erməni təşkilatları Fövqəladə İstintaq Komissiyasının normal işinə maneələr törədib. Buna baxmayaraq, komissiya qısa müddətdə lazımi fakt və materialları toplaya bilib.

Türk-müsəlman qanına susamış ermənilər XX əsrin əvvəllərində xalqımıza qarşı törətdikləri qırğınları bir də əsrin sonlarında – 90-cı illərin əvvəllərində təkrarladılar. Ərazilərimizin 20 faizi işğal olundu. Xocalıda və digər yaşayış məntəqələrimizdə dinc əhaliyə qarşı misli görünməmiş qırğınlar törədildi.

1918-ci ildə xalqımıza qarşı erməni vəhşiliyinin daha bir sübutu 2000-ci illərdə Quba rayonunda üzə çıxarıldı. Burada ermənilər tərəfindən qətlə yetirilmiş insanların kütləvi məzarlığı bədnam qonşularımızın vandalizminin miqyasını bir daha gözlər önünə sərdi. 2007-ci ilin 1 aprelində Qubada torpaq işləri görülərkən kütləvi məzarlıq aşkarlandı. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən ərazidə araşdırmalar həyata keçirildi və məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edildi. Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-cü ildə Quba şəhərində Soyqırımı Memorial Kompleksi yaradıldı...

Yaxşı deyiblər ki, heç bir cinayət cəzasız qalmır. Ermənilərin xalqımızın başına gətirdiyi zülmlərin, törətdiyi hərbi cinayətlərin də cəzası 2020-ci ilin 44 günlük Vətən müharibəsində verildi. “Dənizdən dənizə Ermənistan” xülyası ilə yaşayan mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğradıldı. Ərazi bütövlüyümüz bərpa olundu, bütün şəhidlərimizin qisası alındı.

**Savalan Fərəcov**

# “Hər şeyə rəğmən sənətdən heç vaxt küsmədim...”

## “Əvəzində tamaşaçı sevgisini qazandım”

Vədələşdiyimiz vaxtdan xeyli əvvəl gəldiyini öyrənirəm. Narahatlıqla üzrxahlıq edəndə “Yuxudan oyanan kimi toya, bayrama gedirmiş kimi xüsusi hazırlaşıb teatra gəlirəm. Elə bilirəm bir gün gəlməsəm, dünya başqalaşar”, – deyib gülümsünür. Mən sadə, məşhur sənət adamlarına xas dəbdəbədən, tərtibatdan uzaq qrim otağının iri aynası önündə yerimi alıram. Üz əksimizə baxıb, onun söhbət anında hiss etdiklərini daha yaxşı sezmək üçün... Müsahibim Akademik Milli Dram Teatrında 60 il sənət həyatı yaşamış görkəmli aktyor Xalq artisti, “Şöhrət” ordenli Rafiq Əzimovdur. “Maşallah, bu da 85”, – deyib heç cür divarda dayana bilməyən yubiley tamaşası ilə bağlı afişanı göstərirəm. Yarızarafatla “Nədi, çox göründü? Eh, hələ yaşamaq bundan sonra gözəldir”, – deyib ayağa qalxır, afişanın lent yapışqanını yenidən yapışdırır. Ehmalca yerinə qayıdıb bir afişaya, bir də aynadakı əksinə baxıb izahsız bir ifadə ilə gülümsəyir.

*– Yerində dura bilməyən afişa da bizə yubiley tamaşa-tədbirinizi xatırlatmaq istəyir yəqin...*

– Düzü, yubiley istəmirdim. Çox yubileylər görmüşəm. Ağasadıq Gəraybəylidən bu yana onlarla nəhəng sənətkarın unudulmaz yubileylərinə şahid olmuşam. O tədbirlərin hərəsi bir tamaşa, bir təntənə idi. Deyim ki, nə isə dəbdəbəli mərasimlər olurdu, yox. Sadəcə, səmimiyyət və sevgi vardı. Qaldı mənim 85 illiyimlə bağlı yubileysayağı tədbirimə, bu da adi, tamaşa nümayişindən əvvəlki standart təbrik oldu, sonra rolumu oynadım. Demirəm ki, mütləq hər yubileydə nəsə qeyri-adi mərasim olsun. Sadəcə, ömrü səhnədə keçən insanlar üçün yubileylərdə müəyyən diqqət görmək çox önəmlidir. Eyib etməz, 70 illiyim yüksək səviyyədə qeyd olunmuşdu. Sağ olsun, sənətə və sənətkara daim yüksək qiymət verən möhtərəm Prezidentimiz 80 illiyimdə məni “Şöhrət” ordeni ilə təltif etdi. Onu da deyim ki, dövlət tərəfindən daim diqqət, qayğı görmüşəm. Sənət adamlarına aid olan əksər təltif və mükafatlarım var. Mənim umu-küsüm teatrımızdandı. Bunları niyə qeyd edirəm? Çünki ürəyimə hopub. 60 il bir teatrda, bir ünvanda çalışmaq zarafat deyil. Bundan da fəxrlə danışıram həmişə. Odur ki, arada belə haqlı küskünlüklərimi, cüzi narazılıqlarımı dilə gətirmək haqqım var, məncə. Ümumən, yenə də deyirəm əsas səmimiyyət və sevgidir. Qalanı, sağlıq olsun, düzələr.

*– Hazırda teatrda ən yaşlı aktyor sizsiniz. Əminəm ki, ağsaqqal gileyiniz incitməz.*

– Gənclik dövrümdən o şöhrəti qazanmışam. Sözsüz ki, sənətə sevgimlə. Sağ olsunlar, tamaşaçılar da əziyyətimizi cavabsız qoymayıb.

*– Şöhrəti gənclikdə dadmısınız. Maraqlıdır, bunda 60 ili aşan səhnə yolunun, yoxsa kinonun rolu daha çoxdur?*

– Kinodakı ilk rolum mənim həyatımı dəyişdi. Çünki o obraz mənim elə bil boyuma biçilmişdi. Təsəvvür edin, universitetdə də Şahsuvar, kinoekranda da. İkinci kurs ərəfəsində səhnə danışığı müəllimim Əli Zeynalov rol bölgüsü edəndə “Komsomol” poemasında mənə Şahsuvar rolunu həvalə etdi. Söhbət gedir 50-ci illərdən. Bir də 1970-ci ildə çəkilən “Yeddi oğul istərəm”də Şahsuvar. Bunun da maraqlı tarixçəsi var. Deməli, məşhur rejissor Kamil Rüstəmbəyov (filmi əvvəlcə o çəkməliydi) rol bölgüsündə mənim adımın önünə Şahsuvar yazmışdı. Sonra bizim xəbərimiz olmadan film Tofiq Tağızadəyə həvalə edildi. O da rollar üzərində öz rejissor sahmanını yaratdı. Mən yenə Şahsuvar olaraq qaldım.

*– Filmin rejissor taleyi kimi aktyor seçimi də asan olmayıb, deyəsən.*

– Hər rejissorun öz aktyor seçimi vardı. Amma Tofiq müəllim, əslində, Kamil müəllimin rol bölgüsünə elə də toxunmadı. Sadəcə, 3-4 obrazı dəyişdi. Məsələn, sınaq çəkilişləri zamanı Gəray bəy roluna Əli Zeynalov çəkilib. Sonra elə olub ki, kinostudiyanın direktoru Adil İskəndərov Tofiq müəllimə “Həsənağa Turabovu sına, onda da yaxşı alınacaq”, – deyib. Tofiq müəllim tərəddüdlə “Axı, o cavandı, necə Gəray bəy olsun?” cavabını verib.



Adil müəllim “Qadam, bir yoxla görək”, – deyir və o da çəkilir. Yadımdadı, sınaq çəkilişi idi. Adil müəllim qımışaraq “Qadam, bunun nəyi pisdir ki? Bax, elə əsl Gəray bəydi”, – deyib Həsənağanı alqışladı. O da təsdiq edildi. Yadımdadı, sınaq çəkilişləri idi. Biz iki ay cıdırda at sürmək məşqləri edirdik. Hər roldan da azı 3-4 nəfər idik. Bu həm sənət, həm də əsl həyəcan, intizar yarışı idi. Bir gün Tofiq Tağızadə gəldi və qətiyyətlə “Qalxın atın belinə”, – dedi. Hə, rol bölgüsündə rəhmətlik Eldəniz Zeynalov da vardı. Bizimlə cıdıra gəlsə də, hər məşqdə “Alə, məndən nigaran olmayın, çəkiliş başlasın, görün necə at çapacam”, – deyib bizi də, məşqçini də ötüşdürürdü. Belə oldu ki, Tofiq müəllimin atları minin təlimatında yerindən tərpənmədi. Bəlli oldu ki, atdan qorxur, sadəcə boynuna almır.

*– Tofiq müəllim zabitəli adam olub, eşitdiyimə görə. Sizin səməni əhvalatınızı da bilirəm...*

– (gülür) Hər dəfə yadıma düşəndə belə gülürəm. Filmdə ilk səhnələr çəkilirdi. Bir yerdə də mən səməni ilə gəlməliydim. Pavilyondur, məkan, işıq qurulur. Mənim yerlərimin çəkiləcəyini elan edirlər. Həyəcandan bədənim əsir. Bu mənim “Azərbaycanfilm”də ilk işim idi. Birdən yadıma düşdü ki, rekvizitdən səmənini götürməliyəm. Gedib nə görsəm yaxşıdı? Səməni yoxdu, heç əkilməyib də. Rekvizit sexinin rəisinin rəngi ağardı. “Biz Tofiq müəllimə nə cavab verəcəyik?”, – deyib başını əlləri arasına alıb sıxmağa başladı. Əslində, bu mənim də məsuliyyətim deyildi. Amma cavan adamam da, elə bilirəm səməni olmasa rejissor qəzəblənəcək, məni çəkməyəcək. Atdım e özümü bayıra. Onda indiki kimi deyildi, C.Cabbarlının kinostudiyanın həyətindəki heykəlinin yan-yörəsi çiçəklik, çəmənlik idi. Əl atıb bir dəstə otu köklü-köməcli çıxarıb pavilyona üz tutdum. Ot dəstəsini bir nimçəyə qoyub, oturdum sıramı gözlədim. Çəkiliş baş tutdu, hər şey əla. Rekvizitçilər elə bil dünyaya təzədən gəlmişdilər.

*– 1962-ci ildən bu teatrda çalışırsınız. Buraya ilk gəlişinizi necə xatırlayırsınız?*

– Tələbəlik vaxtı idi, 2-ci kursda oxuyurduq. Məhərrəm Haşımov müəllimimiz idi. O həm də Rus Dram Teatrının baş rejissoru idi. Biz orada kütləvi səhnələrdə oynayırdıq. O truppa ilə Moskvaya, mədəniyyət ongünlüyünə də getdik. Qayıdandan sonra tələbə yoldaşım, dostum Həsən Məmmədovla birlikdə bu teatra gəldik. Dedik “massovka”dırsa, elə bu teatrda çalışaq da. Uzun get-gəldən sonra bizi “razovik” kimi, yəni bir dəfəyə çıxış üçün götürdülər. Biz heyrət içində bu teatrın nəhəngləri ilə bir səhnəyə çıxırdıq. Heç kütləvi səhnədə oynadığın da fərqinə varmadan. Ali təhsilimizi başa vurduqdan sonra üç nəfəri – məni, Eldəniz Zeynalovu və Həsən Məmmədovu təyinatla bu teatra göndərdilər. Eldəniz Zeynalov bizdən iki il əvvəl instituta daxil olmuşdu. Özü də Mehdi Məmmədovun kursuna. Amma şuluqluq saldığına görə onu bir-iki dəfə institutdan çıxarmışdılar. Axırda diplomu bizim kursla bərabər aldı. Düzdür, sonra Həsən Məmmədovun sənət həyatı kino ilə bağlı oldu. 1962-ci ilin sentyabrın 10-dan bu yol mənim üçün başladı. Artıq yardımçı heyətin aktyoru idik. Bizi sınaq müddətinə götürdülər. O vaxt truppada nimdaş aktyorlar çox idi.

*– Nimdaş aktyor?*

– Hə, elə də deyirdilər. Rolların öhdəsindən gələ bilməyən aktyor diplomlular onda da çox idi. Mən bura gələndən içimdə böyük bir ruh baş qaldırdı. Bilirsiniz niyə? Elə etməliydim ki, o cür sıralamaya düşməyim. Şükür, zəhmət, əzm və sənət sevgim məni nimdaş eləmədi. Çünki sənətə təsadüfi gəlməmişdim. Ali aktyor təhsilimdən əvvəl müxtəlif dərnəklərdə olmuşdum.

*– Yardımçı heyətdə kəşf olunmaq uzun sürdü?*

– Yox, rejissorların nəzərində oldum. Çünki rol fərqinə varmadan gecə-gündüz çalışırdım. Qısa zamanda əsas tamaşalarda dublyor, sonra da dublyorsuz çıxmağa başladım. Səbirlə, sevgi və zəhmətlə roldan rola dəyişdim, getdikcə müxtəlif xarakterli rollar oynadım.



*– O nəsil aktyorlar da tez püxtələşirdilər...*

– Çünki müxtəlif janrlarda əsərlərə rollar alırdıq. Bu da aktyoru təkmilləşdirir, onun potensialını göstərir. Sözsüz ki, həm də yaradıcılıq əzmini. Biz gənclər rol bölgüsü divara vurulanda heç vaxt siyahının əvvəlinə baxmaz, aşağıdan yuxarı gözdən keçirər, öz yerimizi bilərdik. İndikilərlə bir fərqimiz də onda idi.

*– Sənətdə bir də rejissorların sevimli aktyoru məsələsi də var.*

– Mənim bəxtimə elə rejissor yox, əksi düşüb. Allah rəhmət eləsin, artıq hər şey keçmişdə qalıb deyə rahat danışıram. Xalq artisti Ələsgər Şərifov teatrda rejissor idi. Kişi məni heç cür qəbul etmirdi. Bunu da elə qabarıq hiss etdirirdi ki, hamı bilirdi. Deməli, “Siyavuş” əsərini qoymuşdu. Mənə də Müşavir rolunu dublyor vermişdi. Sadəcə, nə məşq edir, nə də səhnəyə çıxarırdı. Amma mən inadla zaldan məşqləri izləyir, özüm üçün qeydlər edirdim. Tamaşa hazır oldu, gündüz tamaşalarından birində dublyor kimi mən çıxdım və rolumu ifa etdim. Bir qulağım da səhnə arxasında idi. Rejissor aydın səslə “Bunu kim buraxıb səhnəyə?”, – deyib qəzəblə gəzişirdi. Siz mənim halımı təsəvvür edin də. Nə dinib etiraz edə bilirəm, nə də kimsə rejissora yanlış etdiyini deyir. İçimdə vulkan püskürür. Yarımştat aktyor olduğumdan mənə ad da qoymuşdu: yarımştat. Bunu da tez-tez eşidirdim. Məyus olmurdummu? Əlbəttə, olurdum. Nə isə bir gün bıçaq sümüyə dirəndi. Tamaşadan sonra səhnənin düz ortasında dayanıb hamının içində “Bir də mənə yarımştat aktyor desəniz, mən də sizi yarımştat çağıracam”, – deyib susdum. Hiss elədim ki, tir-tir əsirəm.

Üstündən bir az keçdi, o rejissorun növbəti rol bölgüsüydü. Yenə siyahının aşağısına baxıram və adımı görmürəm. Düşündüm ki, məndən acıq çıxır. Sən demə, yanılmışam. Elə həmin vaxt hazırlamağa başladığı “Cehizsiz qız” tamaşasında mənə əsas rollardan birini verdi və beləcə, yarımştat söhbətini nöqtələdi. O rolu böyük şövqlə oynadım və çox uğurlu tamaşa alındı. O tamaşadakı Karandışev rolu mənim ilk böyük rolum oldu. Amma rejissor yenə də məndən narazı qaldı. Bilmirəm, bəlkə də bu onun rejissor “priyom”u idi. Ruhu şad olsun... Yəni belə hallar mənim də, başqalarının da başına gəlirdi. Amma bunların heç biri bizi ruhdan salırmırdı. Qısacası, rejissorun sevimlisi olan da, olmayan da işini görürdü.

*– Uzun illər səhnədə olmusuz, yaxşı mühitdə formalaşmısınız. Amma həm də müharibə dövrünün ağrılarını görmüsünüz. Gəlin, bir anlıq o dövrə qayıdaq.*

– Üç yaşım olanda atam müharibəyə getdi. Bir də 1947-ci ildə döndü. Uşaqlıq illərim çox ağır keçib. Anam evdar qadın idi, atam cəbhəyə gedəndən sonra işləməyə məcbur oldu. Atam gələnədək Vidadi küçəsində, yarımzirzəmi, birotaqlı evdə yaşayırdıq... 1958-ci ildə instituta daxil oldum. Aktyor olmağımı nə anam, nə də atam istəyirdi. Amma mənim teatra gəlməyimdə anamın dolayısıyla rolu oldu. Dava-dalaş etməyim, məhəllə uşaqlarına qoşulmayım deyə anam məni demək olar ki, bütün dərnəklərə yazdırmışdı. Nəticəsi də bu olmalı idi də... İndi də tez-tez köhnə məhəlləmizdən – Vidadi küçəsindən keçirəm. Hər dəfə elə bilirəm uşaqlığıma qayıdıram.

*– Bir də o dövrün gözəl dostluqları vardı. Bayaqdan Həsən Məmmədovdan və Eldəniz Zeynalovdan böyük sevgi ilə danışırsınız...*

– Bu mövzuda danışanda çox qəribsəyirəm, əhvalım dəyişir. Baxın, mənim indi oturduğum bu otaqda İsmayıl Osmanlı, Səməndər Rzayev, Kamal Xudaverdiyev, Hamlet Xanızadə, Yaşar Nuri kimi böyük sənətkarlar oturublar. Bu adamlardan ötrü necə darıxmamaq olar? Zaman-zaman onlarla ünsiyyət, dərdləşmək ehtiyacı yaranır və əlin hər yandan üzüləndə bu otaqda, gördüyünüz ayna ilə üzüzə dayanaraq xatirələrə dalıram.

*– Teatrda intriqa, söz-söhbət də olur. Siz belə olaylardan hər zaman uzaq qalmısınız. İntriqada rəqabət çox olur, yoxsa paxıllıq?*

– İntriqasız teatr olar? (gülür) Onda yaradıcılıq intriqası idi, indi quru hikkə. Onda vəziyyət başqa idi. Baxın, bizimlə bir yol gələn aktyorlar ya bədii rəhbər, ya direktor oldular. Öz aralarında sevimliləri seçib, ön sıraya çəkdilər. Belə münasibətlər içərisində Səməndər Rzayev kimi nəhəng aktyora layiq olduğu rolları vermədilər. Misallar çox çəkə bilərəm. Sadəcə, artıq olan olub, keçən də belə dərin iz buraxaraq tarixə qovuşub.

*– İnsan yaşa dolduqca bağışlamağı öyrənir, yoxsa unutmağı?*

– Atam həmişə “Oğlum, bir adam sənə pislik eləsə, sən çalış, yaxşılıq elə”, – deyərdi. Əvvəl bu fəlsəfə mənə çatmırdı. İndi anlayıram onu. Məni yaşadan, bu yaşa çatdıran da bu fəlsəfədir. Heç vaxt yaxşılığımdan qalmıram.

*– Maraqlıdır, Akademik Dram Teatrının truppasına düşmək onda çətin idi, yoxsa indi?*

– Onda çətin idi, həm də gözəl. Çünki müəllimlərimiz müəllim idi. Bura gəldik, burada da aktyorların hərəsi də bir ustada çevrildi bizim üçün. Sözsüz ki, biz onların yaxşı cəhətlərini götürürdük.

*– Deməli, o dövrdə sənət daha şəffaf idi, rejissorun rol bölgüsü də?*

– Niyə ki, dediyim kimi, o vaxtlar da rejissorlardan subyektivlik görmüşük. Əsərdə rol bölünür, sən orda özünü görürsən, amma rejissor səndən aşağı səviyyəli aktyora rol verir, sən qalırsan kənarda. Nə qədər əlləşsən də, səndən önə çəkilib, daim yaşıl işığa “düşən”lər olur. Yəni, belələrini də çox gördüm. Amma hər şeyə rəğmən sənətdən heç vaxt küsmədim. Əvəzində də tamaşaçı sevgisini qazandım...

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

---

## Xatirə təqvimi — 31 mart – 4 aprel

### Azərbaycan

**31 mart 1861** – Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, bənzərsiz muğam ifaçısı, Xalq artisti Cabbar Qaryağdıoğlu (1861 – 20.4.1944) Şuşada doğulub. 1906-1912-ci illərdə Kiyev, Moskva və Varşavada ilk azərbaycanlı xanəndə olaraq ifası qrammofon valına yazılıb.

**31 mart 1936** – Xalq artisti, bəstəkar Rafiq Fərzi oğlu Babayev (1936 – 19.3.1994) anadan olub. “Cəngi” folklor-caz kollektivinin yaradıcısı olub. Filmlərə (“Anlamaq istəyirəm”, “Cin mikrorayonda”) musiqi bəstələyib.

**31 mart 1948** – Əməkdar rəssam İsmayıl Əsəd oğlu Məmmədov (1948 – 12.12.2016) anadan olub. Akademik Milli Dram, Musiqili Komediya teatrlarında quruluşçu rəssam işləyib.

**1 aprel 1905** – Əməkdar incəsənət xadimi Əsgər Cəfər oğlu İsmayılov (1905 – 13.11.1983) Tiflisdə doğulub. “Azərbaycanfilm” kinostudiyasında bədii (“Qara daşlar”, “Kölgələr sürünür”) və sənədli (“Bakıdan Göygölədək”, 1947, ilk Azərbaycan rəngli filmi) filmlərin operatoru olub.

**1 aprel 1916** – Tanınmış şair Ənvər Əliverdi oğlu Əlibəyli (1916 – 7.5.1968) anadan olub. “Sənin adınla”, “İlk məhəbbət”, “Elə xoşbəxtəm ki!” və s. kitabların müəllifidir. Şeirlərinə mahnılar bəstələnib. Radio və Televiziya Verilişləri Komitəsinin sədri (1964-1968) işləyib.

**1 aprel 1921** – Əməkdar mədəniyyət işçisi Əminə Cəfər qızı Cəfərova (1921-2005) anadan olub. “Azərbaycanfilm” kinostudiyasında səs texniki, rəng tənzimləyicisi işləyib.

**1 aprel 1924** – Xalq artisti, müğənni Abdulla Murtuz oğlu Babayev (1924-2015) Naxçıvan MR Babək rayonunun Tumbul kəndində anadan olub.

**1 aprel 1929** – Məşhur xanəndə Ələsgər Baba oğlu Abdullayev (Şəkili Ələsgər; 1866–1929) vəfat edib.

**1 aprel 1949** – Dilçi alim, Əməkdar elm xadimi Nizami Manaf oğlu Xudiyev (1949 – 25.5.2021) Naxçıvan MR Şahbuz rayonunda anadan olub. “Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri” QSC-nin sədri, Milli Məclisin deputatı olub.

**1 aprel 1954** – Əməkdar incəsənət xadimi, opera müğənnisi Əhməd Bəşir oğlu Ağdamski (Bədəlbəyli; 5.1.1884 – 1954) vəfat edib.

**1 aprel 1980** – Görkəmli aktyor, Xalq artisti İsmayıl Yusif oğlu Dağıstanlı (Hacıyev; 6.1.1907 – 1980) vəfat edib.

**1 aprel 1981** – Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rza (Rəsul İbrahim oğlu Rzayev; 19.5.1910 – 1981) vəfat edib. Respublika Yazıçılar İttifaqının sədri (1938-1939), kinematoqrafiya naziri (1945-1948) olub.

**1 aprel 2014** – Xalq yazıçısı İsa Mustafa oğlu Hüseynov (Muğanna; 12.6.1928 – 2014) vəfat edib. “Tütək səsi”, “Nəsimi” və s. filmlərin ssenari müəllifidir.

**1 aprel 2019** – Prezident İlham Əliyev görkəmli bəstəkar, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Soltan Hacıbəyovun 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**1 aprel 2022** – Xalq artisti, rejissor Zülfüqar Qulu oğlu Abbasov (3.5.1940 – 2022) vəfat edib. Qazax Dram Teatrında işləyib, Mingəçevir Dram Teatrının baş rejissoru və direktoru olub.

**2 aprel 1931** – Xalq rəssamı Altay Əmir oğlu Hacıyev (1931 – 12.2.2019) anadan olub. Qrafika nümunələrinin, portretlər silsiləsinin (“Tomris”, “Məhsəti Gəncəvi”, “Sara Xatın”, “Xurşidbanu Natəvan”, “Aşıq Pəri” və s.) və s. əsərlərin müəllifidir.

**2 aprel 1932** – Ədəbiyyatşünas, yazıçı, tərcüməçi Xeyrulla Salman oğlu Əliyev (1932–2021) Cəlilabad rayonunun Göytəpə qəsəbəsində doğulub. Milli Məclisin (1991-1995) üzvü, Mədəniyyət və dini əqidə məsələləri komissiyasının sədr müavini olub.

**3 aprel 1908** – Azərbaycanın ilk akademik-filosofu Heydər Nəcəf oğlu Hüseynov (1908-1950) İrəvanda doğulub. Fəlsəfi və ədəbi fikir tariximizə dair tədqiqatların müəllifidir. İki dəfə Dövlət (Stalin) mükafatına layiq görülüb.

**3 aprel 1922** – Tanınmış tarixçi və arxeoloq, dünyanın ən qədim insan məskənlərindən olan Azıx paleolit düşərgəsinin ilk tədqiqatçısı Məmmədəli Murad oğlu Hüseynov (1922-1994) Qazax rayonunun Molla Cəfərli kəndində anadan olub.

**3 aprel 2000** – Prezident Heydər Əliyev tanınmış yazıçı və dramaturq Sabit Rəhmanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**3 aprel 2012** – Prezident İlham Əliyev Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, şairə Xurşidbanu Natəvanın 180 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**3 aprel 2014** – Prezident İlham Əliyev milli teatr və kino sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Barat Şəkinskayanın 100 illiyi haqqında sərəncam imzalayıb.

**4 aprel 1898** – Mədəni-maarif xadimi Məryəm Teymur qızı Bayraməlibəyova-Məlik-Yeqanova (1898-1987) Lənkəranda anadan olub. 30-40-cı illərdə repressiyaya məruz qalıb, sürgündə yaşayıb.

**4 aprel 1913** – Xalq artisti Əli Yusif oğlu Zeynalov (1913 – 4.1.1988) Salyanda doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrında, Akademik Milli Dram Teatrında çalışıb. “Kölgələr sürünür”, “Bir qalanın sirri”, “Həyat bizi sınayır” və s. filmlərdə çəkilib, bir sıra filmlərdə aparıcı rolları səsləndirib.

**4 aprel 1931** – Teatrşünas, professor, AMEA-nın müxbir üzvü İnqilab Saleh oğlu Kərimov (1931 – 22.7.2011) Göyçayda anadan olub.

**4 aprel 1935** – Xalq artisti Muxtar Qəmbər oğlu Maniyev (1935 – 22.12.2016) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub. 50-dən çox filmdə (“İnsan məskən salır”, “Bizim Cəbiş müəllim”, “Nəsimi”, “Nizami”, “Ölsəm... bağışla” və s.) maraqlı obrazlar yaradıb.

### Dünya

**31 mart 1732** – Avstriya bəstəkarı Frans Yozef Haydn (Franz Joseph Haydn; 1732-1809) anadan olub.

**31 mart 1871** – Görkəmli teatr rejissoru Aleksandr Aleksandroviç Tuqanov (1871-1960) Moskvada anadan olub. 1924-cü ildən Azərbaycan Dövlət Akademik Dram Teatrında, 1937-ci ildən Gənc Tamaşaçılar Teatrında baş rejissor işləyib. Dövlət Teatr İnstitutunda dərs deyib. Azərbaycanın Xalq artisti adına layiq görülüb.

**31 mart 1914** – Meksika şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1990) laureatı Oktavio Pas (Octavio Paz; 1914-1998) anadan olub.

**1 aprel 1809** – Rus yazıçı-dramaturqu Nikolay Vasilyeviç Qoqol (Yanovski; 1809 - 4.3.1852) anadan olub. “Ölü canlar” romanı, “Müfəttiş”, “Evlənmə” pyesləri və s. əsərlərin müəllifidir.

**1 aprel 1873** – Rus bəstəkarı, pianoçu Sergey Vasilyeviç Raxmaninov (1873-1943) anadan olub. 1917-ci ildə Amerikaya mühacirət edib.

**2 aprel 1805** – Danimarkalı yazıçı, dünya şöhrətli nağılbaz Hans Kristian (Christian) Andersen (1805-1875) anadan olub. Andersenin xatirəsinə ehtiram olaraq 1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurasının (İBBY) təşəbbüsü ilə 2 aprel “Beynəlxalq Uşaq Kitabı Günü” elan olunub.

**2 aprel 1840** – Fransız yazıçısı, naturalizm ədəbi cərəyanının nəzəriyyəçisi Emil Zolya (Emile Zola; 1840 – 29.9.1902) anadan olub. İyirmi romandan ibarət “Ruqonlar və Makkarlar” epopeyasının müəllifidir.

**3 aprel 1783** – Amerika yazıçısı, tarixçi Vaşinqton İrvinq (Washington İrving; 1783-1859) anadan olub.

**3 aprel 1918** – Ukrayna yazıçısı Oles (Aleksandr) Qonçar (1918-1995) anadan olub.

**3 aprel 1924** – Amerika aktyoru Marlon Brando (1924-2004) anadan olub. Filmləri: “Limanda” (“Oskar”, 1954), “Xaç atası” (“Oskar”, 1972), “Parisdə sonuncu tanqo” və s.

**4 aprel 1818** – İngilis yazıçısı, macəra romanlarının (“Başsız atlı”) müəllifi Mayn Rid (Thomas Mayne Reid; 1818-1883) anadan olub.

**4 aprel 1932** – Rus kinorejissoru və ssenaristi Andrey Tarkovski (1932-1986) anadan olub. “İvanın uşaqlığı”, “Andrey Rublyov”, “Stalker” və s. filmlərin müəllifidir.

**Hazırladı: V.Orxan**

# "İnam. Ümid. Sevgi"

## Moskvada azərbaycanlı həkim-rəssamın sərgisi



Moskvadakı M.İ.Rudomino adına Xarici Ədəbiyyat Kitabxanasında azərbaycanlı rəssam İnci Vəliyevanın "İnam. Ümid. Sevgi" adlı sərgisi keçirilib. Sərgi Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi və Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunub.

İnci Vəliyeva Bakıda doğulub, Azərbaycan Dövlət Tibb Universitetini bitirib, göz həkimidir. 2017-ci ildə, 45 yaşında V.İ.Surikov adına Moskva Dövlət Akademik Rəssamlıq İnstitutunun Təsviri İncəsənət və Rəsm Məktəbinə daxil olub, Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Sərginin bağlanış mərasimində M.İ.Rudomino adına Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Pavel Kuzmin, Azərbaycanın Rusiyadakı Səfirliyinin müşaviri Zaur Paşayev, Heydər Əliyev Fondu nümayəndəliyinin əməkdaşı Tamilla Əhmədova, sənətsevərlər iştirak ediblər.

Tamilla Əhmədova qeyd edib ki, rəssam və həkim İnci Vəliyevanın əsərləri səmimiliyi və xeyirxah ruhu ilə seçilir: "İngilis yazıçısı, Nobel mükafatçısı Doris Mey Lessinq deyir ki, rəssamlar öz əsərlərini sevgi dili ilə yaradırlar və ancaq məhəbbətin gözü ilə onların haqqında mühakimə yürütmək olar: "İnci Vəliyevanın əsərlərinə baxdıqda bu aforizm yada düşür. O, gözün incəliklərini gözəl bilən və öz vəzifə borcuna uyğun şəkildə xəstələrinə görmə qabiliyyətini qaytaran həkim və dünyanın bütün rənglərini, eyni zamanda öz tabloları ilə incəsənəti sevənlərin önündə parlaq və çoxşaxəli dünyanı təsvir edən rəssamdır".

Qeyd olunub ki, rəssamın tabloları, xüsusilə çəkdiyi portretlər öz qəhrəmanlarına olan sevginin etirafıdır. Təkcə bu adlar çox mətləblərdən xəbər verir: "Qəlb", "Ata", "Şıltaq", "Təmənnasız sevgi". İnci Vəliyeva bizim hamımızın gözlərini dünyanın gözəlliyinə açır, xeyirxahlığa inamı qaytarır və bu, fiziki görmə qabiliyyətinin bərpası qədər nəcibdir.

M.İ.Rudomino adına Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Pavel Kuzmin deyib: "İnci Vəliyevanın rəsmləri qış mövsümündə, hələ soyuqların davam etdiyi bir dövrdə baharın gələcəyi və problemlərin keçmişdə qalacağına dair ümidlər verir. Onun tabloları gözəllik, qəlb, günəş, aydınlıq deməkdir və bu əsərlərdən ancaq zövq almaq olar".

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Nisə Mustafayeva qeyd edib ki, bu sərgi Novruz bayramı – təbiətin oyanması ərəfəsində təşkil olunub. "Qadın hər şeyin başlanğıcıdır. Qadın sevgi, inam və ümid deməkdir və sərgi məhz bu sözlərlə adlanıb".

İnci Vəliyeva onun yaradıcılığına verilən yüksək qiymətə görə tədbir iştirakçılarına minnətdarlıq edib. Bildirib ki, öz tablolarında pasiyentlərinin emosiyalarını, həyat yolunda rastlaşdığı maraqlı insanları canlandırıb. "Mənim üçün əsas vəzifə portretlərdə emosiyaları, baxışları əks etdirməkdir və yalnız bundan sonra personajlarım canlanır. Emosiyaları təsvir etməyə nail olanda, kətandan sənə canlı baxışı hiss edəndə, sözlə ifadə edə bilmədiyin hissləri yaşayırsan...".

# Turizm və səyahətlər: "AITF" yenidən fəaliyyətə başlayır

Aprelin 4-dən 6-dək Bakı Ekspo Mərkəzində pandemiya ilə bağlı yaranan üçillik fasilədən sonra növbəti – 19-cu Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi ("AITF – 2023") keçiriləcək. Sərginin təşkilatçısı "Caspian Event Organisers" şirkətidir.




Şirkətin yaydığı məlumata görə, ata öı ənənəvi olaraq müxtəlif ölkələrdən turizm sənayesinin nümayəndələrini, milli və regional turizm təşkilatlarını və dövlət qurumlarını bir araya gətirən, onlara yeni əlaqələr qurmaq, satış coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmək, həmçinin yeni tərəfdaşlar və müştərilər tapmaq imkanı verən turizm bazarının aparıcı tədbirlərindən biridir. "AITF – 2023" sərgisi səyahət etməyi sevən Azərbaycan səyahətçiləri üçün də yeni turistik məkanları kəşf etmək imkanı yaradan bir platforma olacaq.

Sərgiyə Azərbaycanla yanaşı Belarus, Bolqarıstan, Çexiya, Gürcüstan, İsveçrə, Kuba, Polşa, Özbəkistan, Rusiya, Sloveniya, Tunis və başqa ölkələrdən şirkətlər də qatılacaq. Belarus, Çexiya, Polşa və Özbəkistan öz milli stendləri ilə iştirak edəcəklər. Bundan əlavə, Bolqarıstan sərginin baş sponsoru, Özbəkistan isə tərəfdaş ölkəsi kimi çıxış edəcək.

Sərgi çərçivəsində panel müzakirələr aparılacaq, ikitərəfli B2B görüşlər keçiriləcək. Həmçinin təhsil turizmi, xaricdə əmlak, idman turizmi, turizmdə İT texnologiyaları, ovçuluq və balıqçılıq, kruiz sənayesi, aviaşirkətlər, milli və regional turizm orqanları, nazirliklər, səfirliklər, səyahət agentlikləri və turoperatorlar və s. kimi bir sıra sektorlar nümayiş olunacaq.

# "Qremmi" mükafatçısı Heydər Əliyev Mərkəzində çıxış edəcək

Mayın 26-da Heydər Əliyev Mərkəzinin səhnəsində "Qremmi" mükafatı laureatı, rusiyalı pianoçu Mixail Pletnyov çıxış edəcək.

İki hissədən ibarət konsertdə Əməkdar artisti Fuad İbrahimovun dirijorluğu ilə Üzeyir Hacıbəylı adına Azərbaycan Dövlət Simfonik Orkestri də tamaşaçılar qarşısında olacaq.

Proqramda bu il 150 illik yubileyi qeyd olunan dünyaca məşhur bəstəkar Sergey Raxmaninovun əsərləri səslənəcək.

Pianoçu, bəstəkar və dirijor Mixail Pletnyov dövrünün nüfuzlu musiqiçilərindən biridir. O, 16 yaşındaykən Parisdə gənclərin beynəlxalq fortepiano müsabiqəsinin laureatı olsa da, geniş musiqi auditoriyasına 1978-ci ildən – Çaykovski adına beynəlxalq müsabiqənin qalibi olduqdan sonra tanınmağa başlayıb. Musiqiçi Avropanın və Amerikanın orkestrləri ilə müxtəlif ölkələrdə solo konsertlərlə çıxış edib. Mixail Pletnyov həm də Pyotr Çaykovskinin əsərlərinin dünyada ən yaxşı interpretasiyalarını təqdim edən musiqiçilərdəndir.




1980-ci ildə isə Pletnyovun dirijor kimi debütü olub. 1990-cı ildə pianoçu Rusiya tarixində ilk müstəqil orkestr – Rusiya Milli Orkestrini yaradıb. Orkestr Pletnyovun rəhbərliyi ilə dünyanın nüfuzlu musiqi kollektivləri siyahısında yer alıb.

# Misirdə son illərin ən böyük arxeoloji tapıntısı

## II Ramzesin məbədində minlərlə heyvan mumiyası aşkarlanıb





Nyu-York Universitetinin arxeoloji missiyası tərəfindən Misirin Abidos nekropolunda yerləşən II Ramzesin məbədində aparılan qazıntı işləri zamanı əsrlər boyu dini ibadətə dair əvvəllər sənədləşdirilməmiş dəlillər – mumiyalanmış heyvanların olduğu tikili tapılıb.

Misirin Qədim Əsərlər Ali Şurasının baş katibi Mustafa Vəziri bildirib ki, ərazidə aparılan arxeoloji qazıntılar zamanı 2 mindən çox mumiyalanmış qoç başları ilə yanaşı, mumiyalanmış qoyunlar, itlər, keçilər, inəklər, ceyranlar aşkar edilib.

Arxeoloji missiyanın rəhbəri Sami İsgəndər qeyd edib ki, məbədin içərisinə ehtimal ki, nəzir kimi qoyulmuş bu çoxlu sayda mumiyalanmış qoçların tapılması Ptolemeylər dövründə (e.ə. IV-I əsrlərdə Misirdə hakim sülalə) Abidosda ibadətlər zamanı heyvanlardan istifadə edilməsi təcrübəsinə dəlalət edir. Bu, II Ramzesin xatirəsinin onun dövründən (e.ə. XIII əsr) min il sonra hələ də ehtiramla xatırlandığını göstərir. Qədim Misirin ən böyük fironunun məbədinin yaxınlığına gətirilən bu heyvanlar kahinlər tərəfindən öldürüldükdən sonra mumiyalanırmış.

Yuxarı Misir Antik Əsərləri Mərkəzinin rəhbəri Muhammed Abdel-Badei bildirib ki, missiya, həmçinin məbədin şimal qapalı divarlarını və müxtəlif strukturlarını təmizləyə bilib. Bu, məbədin ərazisinin sərhədini aydın şəkildə müəyyən edir və fironların gündəlik həyat tərzini, məntəqədəki həyat, onun idarəçiliyi və ibadətləri daha yaxşı anlamağa imkan verir. Onun sözlərinə görə, yeni tapıntı II Ramzesin məbədinin kəşf edilməsindən 150 il sonra ən böyük arxeoloji uğurdur. Arxeoloji missiya, həmçinin ərazidən heykəllər, papiruslar, qədim ağacların qalıqlarını, dəri paltarlar və ayaqqabılar tapıb. "Yeni kəşflər Qahirədən 400 kilometr cənubda, Nil çayı boyunca yerləşən və fironların altıncı sülaləsindən Ptolemey dövrünə qədər iki minillik bir dövrə qədər olan məbəd haqqında biliklərimizi genişləndirən zəngin məlumatı ehtiva edir", – deyə Abdel-Badei vurğulayıb.

# Sakit okean sahilindən Xəzərin sahilinə

## Vladivostok teatrı doqquz gün Bakıda qastrolda olacaq

*əvvəli səh. 1-də*




Qastrol M.Bulqakovun məşhur romanı əsasında iki il əvvəl, teatrın 88-ci mövsümündə səhnəyə qoyulmuş "Master və Marqarita" tamaşası ilə (1-2 iyul) başlayacaq.

İyulun 4-də Vladivostok teatrı yəhudi yazıçısı Şolom-Aleyxemin əsərləri əsasında hazırlanmış və 20 ildir repertuarda olan "Anma duası"nı, iyulun 5-də isə A.Çexovun "İvanov" komediyasını (28 ildir repertuardadır) nümayiş etdirəcək.

6-7 iyulda əfsanəvi fransız müğənni Edit Piafın həyatından bəhs edən "Edit və onun şeytanları" musiqili-mistik melodramı, iyulun 8-də isə ispan dramaturqu Lopa de Veqanın "Nə yardan doyur, nə əldən qoyur" komediyası Akademik Rus Dram Teatrının səhnəsində Bakı tamaşaçılarına təqdim olunacaq.

Primorsk Akademik Vilayət Dram Teatrının Bakı qastrolu rus yazıçısı V.Pikulun "Kreyserlər" tarixi romanı əsasında tamaşa ilə başa çatacaq.

Qeyd edək ki, "Edit və onun şeytanları" və "Kreyserlər" teatrın eksklüziv tamaşalarıdır, üstəlik, ilk dəfə Vladivostok teatrında səhnələşdirilən "Kreyserlər" Rusiya Federasiyası Hökumətinin mükafatına layiq görülüb.

"Master və Marqarita", "Anma duası" və "Kreyserlər" tamaşalarında teatrın bütün truppası məşğuldur. Ümumilikdə Bakı qastroluna teatrın texniki işçiləri və Uzaq Şərq İncəsənət İnstitutunun tələbələri də daxil olmaqla 100 nəfərdən çox heyət gələcək. Həmçinin bir neçə konteyner dekorasiya, geyim və avadanlıqlar gətiriləcək. Primorsk Akademik Vilayət Dram Teatrının yaydığı məlumata görə, bu, yaradıcı kollektivin ən irimiqyaslı qastrol səfəri olacaq.

**V.Kamal**




## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 167 il əvvəl...

**30 mart 1856-cı ildə** Krım müharibəsinin (1853-1856) yekunlarına dair Parisdə Fransa, Prussiya, Britaniya, Türkiyə, Rusiya arasında sülh müqaviləsi imzalanıb. Müharibə nəticəsində mövqelərini xeyli itirən Osmanlı və Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququndan məhrum edilib. Osmanlı imperiyasının tərkibində Serbiya, Moldaviya, Valaxiyaya muxtariyyət təmin olunub.

### 156 il əvvəl...



**30 mart 1867-ci ildə** Rusiya Alyaskanı ABŞ-yə satıb. Rusiya imperiyasına daxil olan Alyaska yarımadası, habelə Aleut adaları və bir sıra kiçik adalar (ümumi sahəsi 1,519 milyon kvadrat kilometr) 7,2 milyon dollar (qızılla) müqabilində ABŞ-yə verilib.

### 105 il əvvəl...

**30 mart 1918-ci ildə** Bakıda erməni-daşnak və bolşevik dəstələrinin azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınları başlayıb. Ermənilər qırğına əvvəlcədən hazırlaşmışdılar. Türkiyə cəbhəsindən geri dönən rus əsgərlər Şaumyanın başçılıq etdiyi "Bakı Soveti"nin sərəncamında idilər. Dünya müharibəsindən qayıdan azərbaycanlıların əksəriyyəti isə Bakı yaxınlığında tərk-silah edilmişdi.

### 75 il əvvəl...

**3 aprel 1948-ci ildə** ABŞ Konqresi "Marşall planı"nı qəbul edib. Dövlət katibi Corc Marşallın müəllifi olduğu plan II Dünya müharibəsində iqtisadiyyatı iflas etmiş Avropa ölkələrinə geniş maliyyə yardımı nəzərdə tuturdu. SSRİ sosialist təmayüllü ölkələrin yardım almasına imkan vermədi. 4 il ərzində Qərbi Avropa (17 ölkə) iqtisadiyyatının dirçəldilməsinə 13 milyard dollar (ABŞ-da o vaxtkı ÜDM-in 5 faizi həcmində) vəsait ayrıldı.

### 74 il əvvəl...

**4 aprel 1949-cu ildə** Vaşinqtonda NATO-nun (North Atlantic Treaty Organization – Şimali Atlantika Müqaviləsi Təşkilatı) yaranmasına dair saziş imzalanıb. Müqaviləni 12 dövlət – ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Belçika, Niderland, Lüksemburq, Kanada, Danimarka, İslandiya, Norveç və Portuqaliya imzalamışdı. 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-də AFR, 1982-də İspaniya alyansa üzv oldu. 90-cı illərdən SSRİ və sosialist düşərgəsinin dağılmasından sonra NATO-nun sıraları genişləndi və hazırda 30 üzvü var.

### 70 il əvvəl...

**4 aprel 1953-cü ildə** "Ədəbiyyat və incəsənət" qəzetinin ilk sayı çapdan çıxıb. Nəşr respublika Kinematoqrafiya Nazirliyi, Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsi (sonralar Mədəniyyət Nazirliyi) və Yazıçılar İttifaqının orqanı idi. 1991-ci ildən ayrıca "Mədəniyyət" və "Ədəbiyyat" qəzetləri nəşr olunmağa başlandı.

### 55 il əvvəl...

**4 aprel 1968-ci ildə** Amerikada qaradərililərin hüquqlarının müdafiəçisi Martin Lüter Kinq irqçilər tərəfindən qətlə yetirilib. Baptist pastoru olan M.Lüter Kinq 1964-cü ildə Nobel sülh mükafatına layiq görülmüşdü.

### 41 il əvvəl...



**2 aprel 1982-ci ildə** Böyük Britaniya ilə Argentina arasında Folklend (Malvin) adaları uğrunda müharibə başlayıb. 1832-ci ildə Britaniya imperiyasının ərazisi elan edilmiş Folklend adaları Argentinanın dəniz sərhədi (Atlantik okeanı) yaxınlığında yerləşir. Argentinanın adaları özünə birləşdirmək cəhdi uğursuz oldu və müharibə iki ay sonra Britaniyanın qələbəsi ilə başa çatdı.

### 30 il əvvəl...

**2 aprel 1993-cü ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Kəlbəcər rayonunu işğal ediblər. 27 ildən artıq işğal altında qalan Kəlbəcər 2020-ci il noyabrın 25-də, Azərbaycanın 44 günlük müharibədə tarixi Qələbəsinin nəticəsi olaraq azad edildi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 805
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641